www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet  13-14 yanvar 2018-ci il  Şənbə  № 8  (6897)  Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda 461 nəfər avtobus sürücüsünün məhkumluğu aşkarlandı!

yazısı səh.2-də

**Gündəm**

### "Cümhuriyyətin 100 illiyi ilə bağlı geniş amnistiya verilə bilər"



**Siyavuş Novruzov:** "İqtidar həmişə dialoq aparmağa hazırdır, amma nəyin dialoqunu aparaq?"

yazısı səh.7-də

### Publik hüquqi şəxs təcrübəsi - yeni model Azərbaycana nə verəcək...

yazısı səh.10-da

### Xalq Cəbhəsi Azərbaycana demokratiya gətirə bildimi...

yazısı səh.4-də

### "2018-də qeyri-neft sektorunda sürətli inkişaf davam edəcək" - ekspert

yazısı səh.6-da

### Amerika seçkidə Kremlə "sürprizlər" hazırlayır

yazısı səh.9-da

### İranın növbəti dini lideri kim olacaq: fars, türk, yoxsa ərəb - adlardan bir ad var ki...

yazısı səh.12-də

### Azərbaycanda iki nazirliyin birləşdirilməsi projesi niyə alınmır?

yazısı səh.14-də

### İranlılar yenidən Azərbaycanda mənzil almağa başlayıb

yazısı səh.13-də

### Bir həftədə metroda 2 intihar hadisəsi: faciələri necə önləyək...

yazısı səh.14-də

### Fitosanitar Xidmət idxal edilən tonlarla kartofu yandırıb - səbəb...

yazısı səh.13-də

### Ukraynada yayılan qızılca xəstəliyindən Azərbaycanda da aşkarlanıb

yazısı səh.15-də

# ERMƏNİSTAN QARIŞIR: MÜXALİFƏT YENİ HƏRƏKATLA HƏDƏLƏDİ

Yanvarın 19-u yaxınlaşdıqca işğalçı ölkədə daxili gərginlik artır; bahalıq əleyhinə kütləvi etirazlar siyasi etirazlara çevrilə bilər; "Ermənistana investisiya yatırımı ildən-ilə azalır, ölkədən kapital axını güclənir, Ermənistan borc içində çabalayır" - yerli iqtisadçılardan SOS siqnalı...



yazısı səh.8-də

# Azərbaycan ABŞ-dan daha təhlükəsiz ölkədir - faktlar

Amerikada 2016 və 2017-ci illərdə 10-a yaxın terror aktında 150-dən çox insan ölüb, 670-ə yaxın adam yaralanıb; Azərbaycanda isə...

yazısı səh.5-də



*Sabir Rüstəmxanlı:*

**"20 Yanvar faciəsinin qarşısını almaq üçün müəyyən addımlar atmaq olardı..."**

yazısı səh.4-də



**Prezident Əhəd Abıyevə orden verdi**

yazısı səh.2-də



*Professor İlham Rəhimov:*

**"ABŞ Qüds məsələsini iqtisadi şantaja çevirdi"**

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 8 (6897) 13 yanvar 2018

# Azərbaycanda iki Dövlət Agentliyi yaradıldı

**Prezident İlham Əliyev yanvarın 12-də "Azərbaycan Respublikasında nəqliyyat, rabitə və yüksək texnologiyalar sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərman imzalayıb.**



APA-nın məlumatına görə, Fərmana əsasən Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası əsasında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi və Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası əsasında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi yaradılıb. Həmçinin Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə və nazirliyin strukturu təsdiq edilib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Aparatının işçilərinin say həddi 190 ştat vahidi, nazirliyin yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin Aparatının və regional bölmələrinin işçilərinin say həddi 145 ştat vahidi, o cümlədən Xidmətin Aparatının işçilərinin say həddi 100 ştat vahidi, Dövlət Dəniz Agentliyinin işçilərinin say həddi 65 ştat vahidi, Dövlət Mülki Aviasiya Agentliyinin işçilərinin say həddi 48 ştat vahidi, nazirliyin yanında Elektron Təhlükəsizlik Xidmətinin işçilərinin say həddi 18 ştat vahidi, nazirliyin yanında İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun işçilərinin say həddi 12 ştat vahidi müəyyən edilib.

Fərmana əsasən Dövlət Dəniz Administrasiyasının tabeliyində olan Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzi və Nəqliyyat və Texniki-Təminat İdarəsi publik hüquqi şəxs statusu ilə Dövlət Dəniz Agentliyinin tabeliyinə, Dövlət Mülki Aviasiya Administrasiyasının tabeliyində olan Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi isə publik hüquqi şəxs statusu ilə Dövlət Mülki Aviasiya Agentliyinin tabeliyinə verilib. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin və Dövlət Mülki Aviasiya Agentliyinin direktorlarını Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

## Prezident Əhəd Abıyevə orden verdi

**Azərbaycan prezidenti İlham Əliyev Əhəd Abıyevin II dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. Əhəd Abıyev Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə təltif edilib. Onun icra başçısı olduğu Daşkəsən icra Hakimiyyətindən bu barədə müsavat.com-a verilən məlumatda bildirilir ki, Əhəd Mikayıl oğlu Abıyev 1958-ci ilin yanvarın 15-də Masallı rayonunda anadan olmuşdur. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun iqtisadiyyat və planlaşdırma fakültəsini və Universitetin hüquq fakültəsini bitirib.**

Uzun müddət Bakı şəhər İcraiyyə Komitəsində böyük müfəttiş, böyük iqtisadçı, Bakı şəhər İcraiyyə Komitəsində ictimai əsaslarla Xalq Nəzarəti komitəsinin sədri, Bakı Şəhər İcra Hakimiyyətində işçilərin Həmkarlar İttifaqının sədr müavini, 1991-1995-ci illərdə Bakı Şəhər İcra Hakimiyyətinin Əhalinin sosial müdafiəsi və məşğuliyyəti şöbəsinin müdiri vəzifələrində çalışıb.



1993-cü ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.

1995-2000-ci illərdə birinci, 2000-2005-ci illərdə ikinci, 2005-2010-cu illərdə üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin 15 il müddətində deputatı seçilib.

Sitat: "Əhəd Abıyev ölkədə baş verən ictimai-siyasi proseslərdən kənarda qalmamış, ölkəmizin qanunvericilik bazasının gücləndirilməsində yaxından iştirak etmiş, respublikamızın beynəlxalq əlaqələrinin genişlənməsində, dövlətçiliyimizin möhkəmləndirilməsində Milli Məclisin üzvü kimi xüsusi xidmətlər göstərmiş, həmişə seçicilərinin etimadını qazanmışdır.

Azərbaycan Kikboksinq Federasiyasının birinci vitse-prezidentidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 fevral 2011-ci il tarixli Sərəncamı ilə Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilib.

Ailəlidir. İki övladı var".

Xəbərdə bildirilir ki, bu mükafata o, 60 illik yubileyi ərəfəsində layiq görülüb.

## Hava sərtləşəcək, yollar buz bağlayacaq

**Yanvarın 13-də axşam şimal rayonlarından başlayaraq yanvarın 17-dək ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış, bəzi yerlərdə sulu qar, qar yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı gözlənilir.**

Ekologiya və Təbii S Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 3-5 dərəcə aşağı enəcək. Dağlıq və dağətəyi rayonlarda yolların buz bağlama ehtimalı var.

Bakı və Abşeron yarımadasında yanvarın 13-də hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Səhər və axşam bəzi yerlərdə zəif duman, çiskin olacaq. Arabir güclənən şimal-qərb küləyi əsəcək.

Temperaturun Abşeron yarımadasında gecə 2-5, gündüz 7-9, Bakıda gecə 3-5, gündüz 7-9 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 764 mm civə sütunundan 771 mm civə sütununa yüksələcək, nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında yanvarın 13-də hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin bəzi şimal və şərq rayonlarında yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 0-5, gündüz 7-11 dərəcə isti, dağlarda gecə 3-8 dərəcə şaxta, gündüz 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti olacağı gözlənilir.

Tibbi-meteoroloji proqnoza əsasən, yanvarın 13-15-də Abşeron yarımadasında nisbətən dəyişkən hava şəraiti və arabir güclənən xəzri küləyi bəzi meteohəssas insanlarda narahatlıq yarada bilər.



## "Buraxılış imtahanı ötən il olduğu kimi iki mərhələdə keçiriləcək" - Məleykə Abbaszadə

**"Fənn kurikulumlarının tətbiqi ilə bağlı olan bütün bu yeniliklər nəzərə alınaraq, 2016/2017-ci tədris ilində ümumi orta təhsil səviyyəsi üzrə təhsilalanların biliyinin yekun qiymətləndirilməsi (attestasiyası) yeni model əsasında həyata keçirilib".**

APA-nın xəbərinə görə, bu barədə Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə "Abituriyent" jurnalının nəşr olunacaq xüsusi buraxılışının "Ön söz"ündə qeyd edib.

DİM sədri bildirib ki, qaydalara əsasən, ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı ötən dərs ilində olduğu kimi, iki mərhələdə keçiriləcək: "Birinci mərhələdə şagirdlərin oxuyub-anlama və yazı bacarıqlarını yoxlamaq məqsədilə açıq (cavablar müəyyənləşdirilib, yazı ilə ifadə olunur) və qapalı (verilən cavab variantlarından bir doğru cavabın seçilməsi) tipli test tapşırıqlarından, inşalardan (esselərdən), riyazi bacarıqları yoxlamaq məqsədilə açıq tipli, ikinci mərhələdə isə hər bir fənn üzrə qapalı tipli test tapşırıqlarından istifadə ediləcək".



## Əfqan Muxtarlıya 6 il həbs cəzası verildi

**Balakən Rayon Məhkəməsində yanvarın 12-də həbsdə olan jurnalist Əfqan Muxtarlının cinayət işi üzrə məhkəmə iclası davam etdirilib. APA-nın məlumatına görə, iclasda dövlət ittihamçısı çıxış edib.**

Prokuror Ə.Muxtarlının 8 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Bundan sonra məhkəmə müşavirəyə gedib.

Müşavirədən sonra hökm oxunub.

Hökmə əsasən, Ə.Muxtarlı 6 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, Ə.Muxtarlı mayın 29-da saat 22.40 radələrində Balakən rayonu ərazisində Azərbaycan dövlət sərhədini qanunsuz keçdikdən sonra Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən saxlanılıb. Saxlanılarkən Ə.Muxtarlı xidmət əməkdaşlarına müqavimət göstərib. Ə.Muxtarlı inzibati qaydada tutularaq üzərində şəxsi axtarış keçirilib, ondan külli miqdarda nağd pul vəsaiti və digər əşyalar aşkarlanaraq götürülüb.

Ona Cinayət Məcəlləsinin 318-ci (Dövlət sərhədini qanunsuz olaraq keçmə), 206-cı (qaçaqmalçılıq) və 315-ci (Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) maddələri ilə ittiham irəli sürülüb.

## Ötən il ərzaq 16 faizdən çox bahalaşıb

**Dövlət Statistika Komitəsi illik inflyasiya göstəricisini açıqlayıb. Novator.az-ın məlumatına görə, hesabatda bildirilir ki, 2017-ci ildə istehlak məhsullarının və xidmətlərin qiymətləri 2016-cı ilə nisbətən 12,9 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 16,4 faiz, qeyri-ərzaq mallarının qiymətləri 11,6 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 9,3 faiz artıb.**

Ötən ilin dekabr ayında istehlak məhsulları və xidmətləri noyabr ayına nisbətən 0,5 faiz, o cümlədən ərzaq məhsulları 1 faiz, qeyri-ərzaq malları 0,2 faiz bahalaşıb, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə sabit qalıb.

## Polşa prezidenti Avropa İttifaqını ittiham etdi

**Polşa prezidenti Andjey Duda Avropa İttifaqının qurumlarını üzv ölkələrin ehtiyaclarına əhəmiyyət verməməkdə ittiham edib.**



APA-nın "EuroNew"-a istinadən verdiyi məlumata görə, A.Duda bunu Varşavada Prezident Sarayında xarici ölkə səfirlərinin Yeni il münasibətilə qəbulunda deyib.

Polşa prezidenti buna misal olaraq "Brexit" və az əvvəl bir sıra Avropa ölkələrində keçirilən seçkiləri misal göstərib.

**A.Duda Avropa İttifaqının ictimaiyyətdə məyusluq yaratdığını vurğulayıb:** "Avropa İttifaqının institutları cəmiyyətdə inteqrasiya ilə bağlı yaranmış məyusluğa görə məsuliyyəti üzərinə götürməli, səhvlərini analiz etməlidir. Avropa İttifaqının institutlarının vəzifəsi ahəngdar Avropa siyasəti həyata keçirilməsini təmin etməkdir, Avropa xalqlarını bir-birinə qarşı qoymaq deyil".

Qeyd edək ki, son vaxtlar Polşa və Avropa İttifaqı arasında narazılıq yaranıb. Yanvarın 9-da Avropa Komissiyasının sədri Jan-Klod Yunker Polşa baş nazirinin müavini Mateuş Moravetski ilə görüşüb, Avropa İttifaqının Polşaya qarşı sanksiyalar tətbiq etməsinə yol verilməməsi ilə bağlı atılacaq addımları müzakirə edib.

## Bakıda 461 avtobus sürücüsünün məhkumluğu varmış...

**"Avtobus xətlərində həm sürücülər, həm də nəzarətçilərə nəzarət gücləndirilməlidir. Bəlkə də 175 saylı avtobusda sürücü sükanı öz qardaşına verməsəydi, o qəza olmazdı. Burada da daşıyıcı məsuliyyətsizliyi var".**

"APA-Economics" xəbər verir ki, bunu Bakı Nəqliyyat Agentliyinin (BNA) baş direktorunun müşaviri Mübariz Abbasov marşrut daşıyıcıları ilə görüş zamanı bildirib.

M.Abbasovun sözlərinə görə, BNA daşıyıcılarla apardıqları birgə iş nəticəsində 3008 sürücü ilə bağlı araşdırma aparılması üçün DİN, Səhiyyə Nazirliyi və digər qurumlara sorğu ünvanlayıb.

"Artıq Daxili İşlər Nazirliyindən cavablar gəlib. Göndərilən arayışlar nəticəsində 461 sürücünün məhkumluğunun olduğu müəyyənləşib", - deyə M. Abbasov vurğulayıb.

# "ABŞ Qüds məsələsini iqtisadi şantaja çevirdi"

## Professor İlham Rəhimov: "Qətllərin səbəbini insanın daxilində axtarmaq gərəkdir"

**Bu günlərdə hüquq professoru İlham Rəhimovun "Ölümsüz ölüm cəzası" adlı kitabı işıq üzü görüb. Kitabda ölüm hökmünün hüquqi tərəfləri ilə yanaşı tarixi, dini, fəlsəfi, sosioloji, psixoloji aspektləri də geniş araşdırılıb. Professorla bugünkü söhbətə də əsərin yaranma səbəbləri haqda sualla başladıq:**



- Adından da göründüyü kimi əsas mövzu ölüm hökmüdür. Bu haqda fikirlərim ölüm hökmü haqqında yazdığım digər kitablarda da toplanıb. Ancaq həmin fikirlər, daha çox tezis formasında idilər və mən düşündüm ki, bu mövzunu daha geniş araşdırmağa ehtiyac var. Bu gün dünyada, xüsusən Avropada ölüm hökmündən imtina olduğunu görürük. Bu cəzaya moratorium qoyan, ondan imtina edən bir sıra ölkələr qərarları üzərində yenidən düşünməyə başlayıblar - bu addımımız doğru idimi? İsrail bu yaxınlarda ölüm hökmü ilə bağlı müzakirələrə başlayıb. Düzdür, onlar bu cəzanın terrorçulara tətbiq edilməsi üzərində dartışırlar, amma bütün hallarda, məsələ gündəmdədir.

**- Yeri gəlmişkən, necə düşünürsünüz, İsrail ölüm hökmünü bərpa edəcək?**

- Məncə, edəcəklər. Rusiya, Türkiyə, Pakistan ölüm hökmünə moratorium qoyub. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan dəfələrlə Avropa Birliyinə mesaj ünvanlayıb ki, ölüm cəzanın tətbiqi bərpa oluna bilər. Eləcə də Pakistan... Mən həm Rusiya hakimiyyətinin, həm də alimlərin bu məsələyə münasibətindən xəbərdaram. Onlar da ölüm hökmünün tamamilə götürülməsinin tərəfdarı deyillər. Səbəbi isə odur ki, son zamanlar həm ağır cinayətlərin, həm qurbanların sayı, həm də qəddarlıq dərəcəsi artıb. Bu gün dünyada terror geniş yayılmağa başlayıb. Təbii olaraq bütün cəmiyyətlər terrorla mübarizə yollarını aramaqdadır. Məncə, insanın həyatını itirəcəyi qorxusu onu cinayət törətməkdən çəkindirir. Bir var, insan lap ömürlük həbsdə də olsa da yaşayacağını bilir, bir də var, əmindir ki, ölüm cəzası alacaq. Özü də indiki şərtlər daxilində ömürlük həbs cəzası o qədər də vahiməli sayılmaz - məhbuslar televizora baxır, Avropa həbsxanalarında internetə giriş, hətta qida seçmək hüququ var. Ölüm hökmü ilə bağlı saysız kitablar yazılıb. Onların bir çoxu ilə tanışam. Son kitabımın özəlliyi ondadır ki, problem ayrı-ayrılıqda tarixi, dini, fəlsəfi, sosioloji-psixoloji yöndən araşdırılıb. Çünki ölüm hökmü elə bir anlayışdır ki, ona yalnız hüquqi yöndən baxılması dolğun nəticələr çıxarılması üçün yetərli sayıla bilməz. Bu problem sistemli baxış tələb edir və mən əsərimdə bütün yönləri dərindən araşdırmağa çalışmışam. Konkret hansı nəticələrə gəlmişəm - bununla kitabı oxuyanda tanış ola bilərsiniz.

> **"Azərbaycan yardımlarla yaşayan ölkələrdən deyil. Ona görə də, belə bəyanatların bizə təsir edəcəyini düşünmək, yersizdir"**

**- O zaman sualı belə qoyaq. Azərbaycanda da ölüm hökmünün bərpası ilə bağlı müzakirələr dayanmayıb. Bu müzakirələrin sonunu necə görürsünüz?**

- Azərbaycanda ölüm hökmünün ləğvi siyasi qərar olub. Avropa strukturları bunu ölkə qarşısında tələb kimi qoymuşdular. İsveçrə də ölüm hökmünü ləğv edib. Ona görə ki, onlarda ağır cinayətlər faktiki olaraq baş vermir - statistikaya baxsaq, sayı ildə bir əlin barmaqlarından da azdır. Azərbaycanda isə ildə 200-dən çox qəsdən adamöldürmə baş verir. Özü də ildən-ilə bu cinayətin qurbanlarının sayı artır. Ancaq statistikada qurbanların sayından asılı olmayaq hər fakt bir cinayət hadisəsi kimi qeydə alınır. Yəni statistikada qurbanlarının sayı 7, ya da 1 olan ağır cinayətlər arasında fərq yoxdur. Əgər qəsdən adamöldürmə cinayətlərinin sayı ümumi cinayətlərin sayında tək-tək rast gəlinsəydi, o zaman ölüm hökmünün geri qaytarılması gündəmə gətirilməzdi. Təəssüf ki, cinayətlərin sayı çoxalır və cəmiyyət buna qarşı tədbir görməlidir. Dediyim kimi, siyasi qərar olduğu üçün Azərbaycan onun nəticələrini dəqiq hesablaya bilməyib. Ona görə də, ölüm hökmünün bərpası istisna deyil. Hər şeyi statistika müəyyən edəcək - əgər cinayətlərin xarakteri mənfiyə daha çox meyllənsə, ölüm hökmü bərpa ediləcək. Keçmişdə ağır cinayətlərdə, xüsusən qəsdən adamöldürmədə qurbanların sayı çox olmurdu. Ancaq indi eşidirik ki, kimsə bütöv bir ailəni amansızlıqla qətlə yetirib. Fikir vermisinizsə, indi canilər qurbanlarının başını kəsir - əvvəllər belə faktların sayı mindən bir idi. Bu çox vahiməlidir. Cinayətlər çox qəddar xarakter alıb.

**- Sizcə, hansı səbəbdən? Məsələn, Azərbaycanda bu nə ilə bağlı ola bilər?**

- Bu tendensiya yalnız Azərbaycanda deyil, bütün postsovet məkanında müşahidə olunur. Avropanı bu bölgüyə ona görə salmıram ki, Avropa daha çox terrordan əziyyət çəkir, bu, başqa mövzudur. Rusiya imperiyasında baş verən Oktyabr inqilabından sonra cinayətkarlığın durumunu geniş araşdırmışam. Faktlar göstərir ki, 1917-ci ildə inqilab baş verəndən sonra cəmiyyətdə üç problem kəskin xarakter alıb - xəstəliklərin, cinayətlərin, intiharların sayı bir neçə dəfə artıb. Çünki ictimai-siyasi düzənin pozulması, yeni formasiyaya keçilməsi insanların psixologiyasına çox güclü təsir edir. Bu dəyişikliklər insanların öyrəşdikləri həyat şərtlərini darmadağın edir, beləliklə də ictimai münasibətlər pozulur. Qətllərin səbəbini insanın daxilində axtarmaq gərəkdir. Məsələn, dələduzluq niyə baş verir? İnsan başqasının hesabına varlanmaq istəyir. Belə cinayətlərin səbəbi sosial-iqtisadi durumda axtarılmalıdır. Qətllərin səbəbini isə tapmaq son dərəcə çətindir. Araşdırmaların, müzakirələrin sonunda belə qənaətə gəlirik ki, bu insanın xisləti ilə bağlıdır. Deməli, insan hələ də daxilən kamilləşmə mərhələsini keçə bilməyib, ilkin yaradılış təfəkkürünü saxlayıb. Azərbaycanda da cinayətlərin artım tendensiyası köhnə quruluş dağıldıqdan sonra baş verdi. Cəmiyyətdə ictimai münasibətlər yenidən qurulmağa başladı. Qanunlar oturuşana qədərki aralıqda bir çox məsələlər 180 dərəcə dəyişdi, təbəqələşmə baş verdi - bəzi insanlar hədsiz varlandılar, bəziləri isə həyatın dibinə yuvarlandılar. Bütün bunlar insanların psixologiyasında ciddi dəyişiklik yaradır və cinayətlərin statistikasına və xarakterinə birbaşa təsir göstərir.

**- Professor, söhbətin yönünü bir qədər də beynəlxalq siyasət olaylarına çevirmək istəyirik. Ötən həftəsonu ABŞ-ın Maliyyə Nazirliyi Çeçenistanın başçısı Ramzan Kadırovun "Maqnitski siyahısı"na daxil edib. Medianın iddiasına görə, bu siyahıda Rusiya liderinə yaxın bir çox adamların adı da var. Bu xəbərləri necə qiymətləndirirsiniz?**

- Mətbuatdan izlədiyimə görə bu siyahı Maqnitskinin ölümü ilə bağlı yaradılıb, ABŞ rəsmiləri bu işlə bağlı hüquq-mühafizə orqanları işçilərinin adını o siyahıya salıblar. Bu siyahıya Kadırovun hansı səbəbdən salındığı isə mənə aydın deyil.

**- Keçən ilin ən böyük hadisəsi yəqin ki, ABŞ prezidenti Donald Trampın Qüdsü İsrailin paytaxtı elan eləmək və səfirliyi ora köçürməklə bağlı qərarı oldu. Ondan bir neçə gün sonra isə Türkiyə lideri İstanbulda İƏT-in təcili toplantısını çağırdı və orada Azərbaycan prezidenti İlham Əliyev də iştirak etdi. Amerika liderinin bu qərarını necə şərh edərdiniz? Bu məsələ strateji xarakter daşıyan Azərbaycan-İsrail münasibətlərinə xələl gətirə bilərmi?**

- Trampın prezidentliyə namizədliyi irəli sürüləndə bildirmişdim ki, o siyasətçi deyil, biznesmendir, böyük siyasət məktəbini keçməyib. Belə şəxslər hakimiyyətə gələndə gözlənilməz addımlar atırlar. Gözlənilməz addımlar isə çox zaman heç də yaxşı olmayan nəticələrə gətirir. Uzun illər siyasətdə olan insan heç zaman belə bir addım atmazdı. Çünki belə addımlar atılan zaman yalnız ölkə ictimaiyyətinin onu necə qarşılayacağı deyil, geniş geosiyasi sonucları da hesablanmalıdır. Uzun illərin siyasət adamları bu cür həssas məsələlərdə son dərəcə ehtiyatlı davranırlar. Məsələn, Rusiya prezidenti... Putin heç zaman belə düşünülməmiş addım atmaz. Bir qərarı verməzdən öncə o, dəfələrlə nəticələri hesablayır. Bu mənada Vladimir Putin çox ehtiyatlı adamdır. Tramp isə bu məsələdə özünü dolaşığa saldı, sonucda ABŞ dünya ilə üz-üzə qaldı. BMT müzakirələrində ABŞ-ı 6-7 ölkə müdafiə etdi ki, onların da adı belə çoxlarına tanış deyil. Beləliklə, Trampın bu düşünülməz addımı ABŞ-ın nüfuzuna ciddi zərbə vurdu. Qüds məsələsində ABŞ-ın daha bir ciddi yanlışı "bizi dəstəkləməyənlərə maliyyə yardımı ayırmayacağıq" bəyanatı oldu. Bu, iqtisadi şantajdır. Bu o deməkdir ki, bizimlə olmayanları cəzalandıracağıq. ABŞ kimi supergüc üçün bu doğru addım sayıla bilərmi? ABŞ elə bir cəmiyyət qurub ki, dünya onu model kimi qəbul edir, ona oxşar sistem yaratmağa çalışır və birdən, belə ehtiyatsız bəyanat eşidilir... Amma bu bəyanat tərs effekt verdi, dünya ABŞ-ın qabağından qaçmadı...

**- Həmçinin Azərbaycan...**

- Bəli. Azərbaycan bu şantajdan niyə çəkinməliydi ki? Azərbaycan yardımlarla yaşayan ölkələrdən deyil. Allaha şükür, bizim yetərincə sərvətimiz var. Ona görə də, belə bəyanatların bizə təsir edəcəyini düşünmək, yersizdir.

**- Qüds məsələsini biznes ortaqlarınız, yəhudi əsilli Qod Nisanov və Zarax İliyevlə müzakirə etmisinizmi? Onların mövqeyi necədir?**

*(ardı var)*

❑ **Aygün MURADXANLI,**
**"Yeni Müsavat"**

# 20 Yanvar faciəsi baş verməyə bilərdimi...

## Sabir Rüstəmxanlı: "Qırğının qarşısını almaq üçün müəyyən addımlar atmaq olardı, amma..."

**28 il öncə bu günlərdə Azərbaycan ən gərgin günlərini yaşayırdı. Hər keçən gün xalqımız tarixinin ən böyük faciələrindən birinə - 20 Yanvar qırğınına doğru gedirdi. Amma bununla belə xalq öz müstəqillik mübarizəsindən nəinki bir addım geri çəkilmir, hətta ölümün gözünə dik baxa-baxa hədəfinə doğru irəliləyirdi.**

Amma bununla belə xalq hərəkatına rəhbərlik edən Azərbaycan Xalq Cəbhəsinin rəhbərliyində fikir ayrılığı yaranmış, faktiki təşkilat parçalanmışdı. Məhz bunun təsiri ilə 1990-cı ilsə məlum faciədən 1 həftə əvvəl Milli Müdafiə Şurası yaradılmışdı. Lakin bu və ya digər səbəblər xalqımızı 20 Yanvar faciəsindən xilas etməmişdi.

*Hər ilin bu günləri daha çox bir məsələ gündəmə gəlir. Bu faciə baş verməyə bilərdimi? Baş verməzdisə, Azərbaycan müstəqillik əldə edəcəkdimi?*

**Xalq hərəkatının liderlərindən olan, VHP sədri, xalq şairi Sabir Rüstəmxanlı** indi o dövrün hadisələrini analiz etməyin çox çətin olduğunu söylədi: "O hadisələri yazmışam. O dövrkü hakimiyyət baş verənlərdən istifadə edib bunları xalq hərəkatının boynuna yıxmaq istəyirdi. Əslində 1998-ci ildə başlayan xalq hərəkatı vaxtı belə faciə törətmək istəyirdilər. O zaman Moskvanın ssenarisi ilə Sumqayıt hadisələri törədilmişdi. İkinci bir ssenarini Bakı üçün yazmışdılar. Amma biz 1988-ci ildə buna imkan vermədik. Həmin mitinqlər bir nəfərin burnu da qanamadan başa çatdı. Halbuki həmin ildə Bakıda kifayət qədər erməni və digər millətlər yaşayırdı. Düşünürəm ki, fövqəladə vəziyyətin elan olunması, ordunun şəhərə daxil olması meydanda bizlər arasında olan fikir ayrılıqlarının bəlkə də səbəbi idi. Ordu heç o vaxt da Bakıya girə bilməzdi. 1990-cı ilin yanvarında proseslər daha da ciddiləşdi. Həmin ayın 6-7-də Xalq Cəbhəsinin konfransı keçirilmişdi. O vaxt artıq AXC-də parçalanma var idi. Demokratik düşərgə dinc mübarizənin tərəfdarı idi. Oradan qopan qrup daha ciddi, radikal mübarizə tərəfdarı idi. Onlar Müdafiə Şurası yaratmışdılar. Bu guya Xalq Cəbhəsinin yaratdığı Müdafiə Şurası idi. Amma əslində qalsa AXC-dən ayrılanların yaratdığı bir qurum idi. Bunları çox dilə gətirmək istəmirəm. Kiminsə xətrinə də dəymək istəyim yoxdur. Ordunun Bakıya girişinin qarşısını almaq heç cür mümkün deyildi. Heç bir təcrübəsi olmayanlar ortaya düşdülər ki, Qarabağ məsələsini həll edəcəyik, silah istehsal edəcəyik. Bu o vaxt da dediyim kimi Xalq Cəbhəsinin müəyyən bir qanadının aldadılması idi. O vaxt hökumətin kifayət qədər hərbiçisi var idi, əgər hərbi bir hazırlıq var idisə, onların əli ilə edə bilərdilər. Həmin vaxt xalq hərəkatının da yüksəliş dövrü idi. Artıq yanvarın 15-16-da ordunun Bakıya gəlməsi üçün sərəncam verilmişdi. Mən bu sərəncamdan təsadüfən xəbər tutmuşdum. Qorbaçov faciəyə 4-5 gün qalmış bu sərəncamı vermişdi. Bunu yoldaşlarıma demişdim. Bir tərəfdən hakimiyyətin qorxaqlığı, hadisələri analiz edə bilməməsi səbəbindən, digər tərəfdən xalqın güclənən müqavimətinin qarşısını almaq üçün ordu Bakıya yeridilmişdi. Düşünürəm ki, həmin vaxt hakimiyyətdə olanların da burada əli var idi. Niyyətləri bu idi ki, ordu yeridilsin, xalq hərəkatına dərs verilsin. Bununla xalqın gözünü qorxutmaq istəyirdilər. Beləliklə Azərbaycanın SSRİ-dən qopma prosesinin qarşısını alacaqlarını düşünürdülər. Ordunun yeridilməsi ilə guya İran-Azərbaycan arasında açılan sərhədlərdən sonra yaranan təhlükələrin qarşısını almaq istəyirdilər. Amma ordu nə sərhədə, nə də Qarabağa getmədi, birbaşa Bakıya gəldi. Bununla Moskvaya qul kimi xidmət edən Azərbaycan rəhbərliyinin yerini möhkəmləndirmək istəyirdilər. Əslində məqsəd bu idi, amma bumeranq kimi niyyətləri öz başlarına dəydi, SSRİ-nin dağılması sürətləndi. 28 il öncənin bu günlərində baş verənlər əslində ordunun Bakıya gətirilməsi üçün hazırlanma bəhanələri idi. Xüsusi dəstələr peyda olmuşdu və onlar Bakının küçələrində dolaşırdılar. Özlərinin silahlandırdıqları qüvvələr də var idi. Onları Bakının ətraflarında yerləşdirib, atəş açdırırdılar. Sonra da Xalq Cəbhəsinin guya silahlandığını, orduya atəş açdığını deyirdilər. Belə təsəvvür yaradırdılar ki, guya AXC bütövlükdə silahlanıb, SSRİ-ni devirmək üçün. Hətta Qarabağdan erməniləri çıxarmaq üçün Xalq Cəbhəsinin silahlandığı fikirlərini də ortaya atmışdılar. Bunun qarşının mütləq alınmasının vacibliyindən danışırdılar".



**S.Rüstəmxanlı faciənin qarşısını almaq üçün müəyyən imkanların o zaman olduğunu, lakin bundan istifadə edilmədiyindən də söz açdı**: "Baş verənlər göz qarşısında idi. Təəssüflər olsun ki, bəzi dostlarımız bunu görmədilər, bundan nəticə də çıxarmadılar. O vaxt faciənin qarşısını almaq üçün müəyyən addımlar atmaq olardı. Amma bu Moskvanın müdaxiləsinə az mane olardı. Bununla olmasa da, başqa bəhanələrlə Bakıya ordu yeritmək niyyətlərindən geri çəkilməyəcəkdilər. Amma o zaman məsələ tamam fərqli istiqamətlərə də yönələ bilərdi. Primitiv yollarla ordunun Bakıya gəlişinə maneçilik yaratmaq cəhdləri olmasaydı, bəlkə də ordunun Bakıya girişinin qarşısını almaq olardı. Heç fövqəladə vəziyyət də elan olunmazdı. Məhz bu vəziyyətdən sonra Qarabağdakı proseslər qızışdı, əl-qolumuz tamam bağlanmışdı. Eyni zamanda, Xalq Cəbhəsinin təşkilatlanması da xeyli gecikdi. Bütün bunlar proseslərə çox ağır təsir göstərdi".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# Xalq Cəbhəsi Azərbaycana demokratiya gətirə bildimi...

## Partiya sədrindən AXC-nin missiyasının harada bitdiyi haqda açıqlamalar

**1989-cu ildə yaradılan və xalq hərəkatına öncüllük edən Azərbaycan Xalq Cəbhəsinin (AXC) Azərbaycan tarixində, o cümlədən 20 yanvar hadisələri zamanı rolu barədə müxtəlif fikirlər irəli sürülür. AXC-nin liderlərindən olmuş İsa Qəmbərin son bir həftədə sosial şəbəkədə tarixə ekskurs edən silsilə yazılarından sonra bu mövzu daha da aktuallaşıb.**



*"Azərbaycan Xalq Cəbhəsi Azərbaycan tarixində daha çox müsbət, yoxsa mənfi rolu olan təşkilatdır? Xalq Cəbhəsi Azərbaycana demokratiyanın gəlişinə yol açdı, yoxsa gəlişini qapadı?"* tipli suallar yenidən gündəmə gəlib.

**Xalq hərəkatı dövründə AXC-nin sıravi üzvü olmuş VİP sədri Əli Əliyev** ilə bu mövzuda söhbətimizdə qeyd etdi ki, Azərbaycan Xalq Cəbhəsinin Azərbaycan dövləti və xalqı qarşısındakı xidmətlərə mənfi çalarda yanaşmaq nadanlıqdan başqa bir şey olmazdı. Sözsüz ki, dövlət müstəqilliyinin bərpasında, keçmiş imperiyanın çöküşündə, hətta dünya xəritəsinin dəyişməsində və 2-ci dünya müharibəsindən sonrakı dəngənin dəyişdirilməsində, bir az da əvvələ getdikdə sosialist düşərgəsi ilə kapitalist ideoloji platformasının 70 illik qarşıdurmasında nəticənin əldə olunmasında AXC-nin danılmaz və təkzibolunmaz xidmətləri var: "Düzdür bu xidmətləri 1991-ci ilin dekabrın 5-nə qədər olan dövrə, Belovejsk meşəsində SSRİ-nin buraxılması ilə bağlı imzalanmış sazişə qədər olan dövrə aid etmək lazımdır. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası ilə bağlı 1991-ci ildə Parlamentin 18 oktyabr tarixli bəyannamənin qəbulundan sonra AXC öz tarixi missiyasının həlledici mərhələsini bitirmiş oldu. Məhz AXC-nin fəaliyyətinin nəticəsi idi ki, Azərbaycan xalqı 1989-cu ildə dünyanın bir saylı mübariz xalqı elan edildi. AXC-nin xidmətləri idi ki, Azərbaycan xalqını toparlaya, qanlı qırmızı imperiyaya qarşı sinə gərə bildik".

**Ə.Əliyev bildirdi ki, birinci mərhələdən sonra ölkədə başlamış partiyalaşma AXC dövrü sayılmamalıdır:** "1992-ci ilin əvvəlindən başlayaraq, hərəkatdan qüvvələr ayrılmağa, partiyalar qurmağa və siyasi sistemin təməllərini formalaşdırmağa başlanıldı. Düzdür, 1992-ci ilin iyununda Əbülfəz Elçibəy AXC lideri kimi hakimiyyətə gəlsə də, artıq AXC-nin daxilində, hakimiyyət komandasının içində bölünmə prosesi başlamışdı. Növbəti uğursuzluqların kökü də məhz bu xalqaltı savaşın içində gizlənir. Bu yanlışları heç bir halda AXC-nin ayağına yazmaq, onun xidmətlərinə kölgə salmaq yolverilməzdir. 90-ların Azərbaycan Xalq Cəbhəsi xidmətlərinin miqyasına və tarixi əhəmiyyətinə görə Məhəmməd Əmin Rəsulzadə AXC-sindən az əhəmiyyətli işlər görməyib. Bu səbəbdən AXC fəaliyyətinin səthi qiymətləndirilməsini düzgün hesab etmirəm. Bu bir sualla ətraflı cavablandırılması mümkün olmayan mövzudur".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

**Hər ilin əvvəlində ABŞ Dövlət Departamenti terror təhdidi olan ölkələrin siyahısını yayır. Daha dəqiqi, öz vətəndaşlarını həmin ölkələrə gedərkən diqqətli olmağa çağırır, yaxud da getməyi tövsiyə etmir.**

# Azərbaycan ABŞ-dan daha təhlükəsiz ölkədir - faktlar

## Amerikada 2016 və 2017-ci illərdə 10-a yaxın terror aktında 150-dən çox insan ölüb, 670-ə yaxın adam yaralanıb; Azərbaycanda isə...

**2018-ci il yanvarın 10-da da Dövlət Departamenti növbəti belə bir çağırış edib və çox təəccüblü, maraqlıdır ki, bu dəfə Azərbaycanın təhlükəlilik dərəcəsini 1-dən 2-yə qaldırıb.**

Qurum ABŞ vətəndaşlarını terrorizm təhlükəsi ilə əlaqədar Azərbaycana səyahətdə diqqətli olmağa çağırıb. Bəzi sahələrdə risklərin artdığı qeyd olunub.

Məlumatda iddia olunur ki, "terrorçu qruplar Azərbaycanda mümkün hücumları planlaşdıra bilərlər. Terrorçular turizm məkanlarını, nəqliyyatı, ticarət mərkəzlərini, yerli hökumət obyektlərini, restoranları, ibadət yerlərini, mədəni tədbirləri, aeroportları və s. ictimai yerləri hədəf ala bilərlər".

Dövlət Departamenti, həmçinin vətəndaşlarına Dağlıq Qarabağa səfər etməməyi tövsiyyə edib və münaqişə ərazisində ABŞ-ın vətəndaşlarının təhlükəsizliyini qoruya bilməyəcəyi barədə məlumat verib.

İndi keçək bu deyilənlərin təhlilinə. Sonuncudan - Dağlıq Qarabağdan başlayaq və kəsə deyək: Dağlıq Qarabağ probleminin həlli üçün işğalçı Ermənistanın Azərbaycana qarşı torpaq iddiasından geri çəkilməsi, işğal etdiyi torpaqları boşaltması yeganə şərtdir. Dünyanın "başbiləni", həmsədr ölkə kimi Amerika rəhbərliyi də bunu çox gözəl bilir. Odur ki, Dağlıq Qarabağda - Azərbaycanın hazırda nəzarət edə bilməyəcəyi ərazilərdə hansısa təhlükələr mövcuddursa, burada yeganə günahı olmayan da elə Azərbaycandır. Günahkar işğalçı Ermənistan və ona açıq şəkildə dəstək verən Qərb, ABŞ-ın özüdür.

Azərbaycan ərazisində terror təhlükəsinə gəlincə, bu, artıq bir dövlətin daxili işi deyil! Terror ümumbəşəri bəladır və bu bəlanın ortaya çıxmasında başlıca günahkar elə Qərbdir. Sirr deyil ki, terrorçu təşkilatlar beynəlxalq güclərin, bəzi super dövlətlərin əlində həm də bir alətdir. Bu iddialar da yersiz deyil ki, əksər terror şəbəkələrini onlar qidalandırır, maliyyələşdirir, silahlandırır. Sonda isə həmin terror təşkilatları tam nəzarətdən çıxıb, bu güclərin özünə qarşı da təhlükəyə çevrilirlər. Hətta açıq şəkildə terror təşkilatlarına dəstək verilməsi faktları da var. Məsələn, bütün dünyanın terror qurumu kimi tanıdığı - PKK-nın Suriya qolu YPG-yə Amerika "şəffaf" şəkildə yardım edir, silah verir! Hətta ABŞ Xüsusi Qüvvələr Komandiri general Raymond Tomas YPG-nin adını Suriya Demokratik Qüvvələri olaraq dəyişdirdiklərini də açıqlamışdı.

O cümlədən, radikal vəhabizmin, İŞİD-in də Qərb tərəfindən yaradıldığı haqda iddiaları bütün dünya boyunca əksər mötəbər media quruluşları yazıb. Göstərilən faktlarsa kifayət qədər də inandırıcıdır.

Azərbaycanın turistik bölgəyə çevrildiyi bir vaxtda, son 2 ildə ölkəmizə turist axınının 20 faizdən çox artdığı bir zaman kəsiyində Amerikanın Azərbaycanı terror təhlükəsinin yüksək olduğu ölkələr sırasına salması həm də bir qərəzdir. O da mümkündür ki, Amerika Gürcüstanı özünün bölgədəki forpostu hesab etdiyindən bu regionda turizmin də məhz orada güclənməsində maraqlıdır.

Və bir ciddi mülahizə də budur; gerçəkdən ABŞ-ın xəbəri var ki, dünya boyunca harada terror ola bilər. Məsələn, Türkiyədə "Reina terroru"ndan bir qədər əvvəl Amerika xüsusi xidmət orqanları İstanbulda terorrçuların qanlı aksiya planlaşdırdıqları barədə xəbərdarlıq etmişdi...

Bu kimi ayıq-sayıqlığı Amerikanın güclü kəşfiyyat orqanlarının fəaliyyəti ilə əlaqələndirənlər çoxluq təşkil edir. Amma belə bir ritorik iddialar, fikirlər də var: "Terroru sifariş edən əlbəttə bilir ki, terror harada olacaq"...





**Qayıdaq Azərbaycana.** Düzdür, son illərdə ölkəmizdən xeyli sayda radikal dindarlar müxtəlif terrorçu şəbəkələrə qoşulublar. Ötən illərdə xüsusi xidmət orqanlarının onların zərərsizləşdirilməsi istiqamətində atdığı addımları danmaq elə dünyada Amerikanın mövcudluğunu danmaq kimi bir şey olardı. Həmçinin, bu fakt da danılmazdır ki, hazırda dünyanın ən sakit, sabit, terror törədilməyən, əmin-amanlıq olan azsaylı dövlətlərindən biri də Azərbaycandır. Şükürlər olsun, bizdə düz 10 ildir ki, terror olmur! Sonuncu dəfə Bakıda 2008-ci ildə baş verib belə hadisə - radikal dinçilərin toplaşdığı Əbu-Bəkr məscidinə qumbara atılmışdı, 2 nəfər ölmüşdü.

Amma bilirsinizmi Amerikada təkcə 2016 və 2017-ci illərdə nə qədər terror olub və neçə adam terror qurbanıdır?!

**Faktlara diqqət edək:**

**12 iyun 2016-cı ildə** ABŞ-ın Florida ştatının Orlando şəhərində yerləşən "Pulse" gecə klubunda törədilən terror aktı nəticəsində 53 nəfər ölüb, 100-ə yaxın insan yaralanıb.

**17 sentyabr 2016-cı ildə** ABŞ-da Manhettenin qərb hissəsində baş verən partlayış nəticəsində 29 nəfər xəsarət alıb. Bir sutka sonra isə Nyu-Cersidə əl-dəqayırma bomba partlayıb. Hadisələrlə əlaqədar 28 yaşlı əfqan mənşəli Əhməd Xan Rəhimi saxlanılıb.

**7 yanvar 2017-ci ildə** ABŞ-ın Florida ştatında yerləşən "Fort Lauderdal Hollivud" beynəlxalq hava limanında naməlum şəxs kütləyə atəş açıb. Terror nəticəsində 5 nəfər ölüb, 9 nəfər yaralanıb.

**2 oktyabr 2017-ci ildə** Las-Veqas şəhərində törədilən terrorda isə ölənlərin sayı 62 nəfər, yaralıların sayı isə 515 nəfər olub.

Hadisəni törədən şəxsin 64 yaşlı yerli sakin Stiven Paddok olduğu müəyyənləşib.

**31 oktyabr 2017-ci ildə** Nyu-Yorkda sürücü yük maşınını piyadaların üzərinə sürüb. Nəticədə 8 nəfərin ölüb, 12 nəfər yaralanıb.

**6 noyabr 2017-ci ildə** ABŞ-ın Sazerlend-Sprinqs şəhərində (Texas ştatı) naməlum şəxsin baptist kilsəsinə daxil olaraq atəş açması nəticəsində 27 nəfər ölüb...

Ölüm faktı olmayan, amma müxtəlif sayda insanın yaralanması ilə nəticələnən bir neçə digər terror aktı da var.

**İndi reallığı özünüz qiymətləndirin, ABŞ təhlükəli dövlətdir, yoxsa son 10 ildə terror baş verməyən Azərbaycan?**

❑ **Elşad MƏMMƏDLİ**

# ABŞ-ın "təhlükə" siyahısına daxil edilməyimizdə İŞİD "izi", yoxsa siyasi hədəf...

## Ekspertlər departamentin açıqladığı siyahının əsl məqsədindən danışdılar

**Xəbər verildiyi kimi, ABŞ Dövlət Departamenti amerikalı turistləri xarici ölkələrə səfər zamanı təhlükəsizlik riskləri haqqında məlumatlandırmaq üçün yeni sistem işə salıb. Azərbaycan amerikalı turistlərin təhlükəsizliyinə risk olan dövlətlər arasında ikinci kateqoriya ölkələr siyahısına daxil edilib.**

Yeni sistemdə dünya ölkələri səyahətin təhlükəsizliyi baxımından dörd kateqoriyaya bölünüb:

**1-ci kateqoriya** - adi ehtiyat tədbirləri kifayətdir;

**2-ci kateqoriya** - ölkəyə səfər zamanı son dərəcə ehtiyatlı olun;

**3-cü kateqoriya** - bu ölkəyə səyahət etməklə bağlı qərarınızı yenidən nəzərdən keçirin;

**4-cü kateqoriya** - bu ölkəyə səyahət etməyin.

Qeyd edilir ki, bölünmə şərtidir və məcburi yox, tövsiyə və xəbərdarlıq xarakteri daşıyır. ABŞ Dövlət Departamenti həmçinin münaqişə ilə əlaqədar öz vətəndaşlarına Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə səfərə getməməyi tövsiyə edib.

Artıq Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) ABŞ Dövlət Departamentinin Azərbaycanı terror riski olan ölkələr kateqoriyasına daxil etməsinə münasibət bildirib. Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib ki, son illərdə Azərbaycana turist axınının 24 faiz artdığı, ölkəmizə gələn əcnəbi vətəndaşların sayının 2,7 milyon nəfəri ötdüyü, Azərbaycanın I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Formula-1 yarışları, mədəniyyətlər və dinlərarası dialoq forumları, digər yüksək səviyyəli siyasi, iqtisadi, idman və mədəniyyət xarakterli mötəbər tədbirlərə, o cümlədən ABŞ və Rusiya Baş qərargah rəislərinin, NATO hərbi komitəsinin rəhbərinin və Rusiya Baş qərargah rəisinin görüşləri kimi tədbirlərə ev sahibi etdiyi halda, ABŞ Dövlət Departamentinin belə bir açıqlaması çox təəccüblüdür. "Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş əraziləri istisna olmaqla, Azərbaycan hökuməti ölkədəki təhlükəsizlik və operativ vəziyyəti tam nəzarətdə saxlayır".

Azərbaycanın belə bir siyahıya daxil edilməsinə Rusiya da etiraz edib. **Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova** bildirib ki, Azərbaycana getməməyi bu ölkə haqqında hər hansı təsəvvürü olmayan insanlar tövsiyə edə bilər. M.Zaxarova qeyd edib ki, Azərbaycan həm idman, həm də mədəniyyət sahəsində bir çox beynəlxalq tədbirlər keçirib: "Bunu Bakıda heç vaxt olmayan insan yaza bilər. Mən dəfələrlə və böyük məmnuniyyətlə Azərbaycana səfər edən biri kimi deyə bilərəm ki, turistlərə bu ölkəyə getməməyi tövsiyə etmək sadəcə cəfəngiyyatdır".




**Milli Məclisin müdafiə və təhlükəsizlik komitəsinin üzvü Zahid Oruc**a görə, Departamentin tövsiyələri müxtəlif şəraitlərdən qaynaqlana bilər: "Azərbaycanda həmin şəraitlər mövcud deyil. Yaxın Şərqə gedən terrorçuların ixracı məsələsində isə qətiyyən bizim ölkəmizin adını qabardıb onun adını ön yerlərə qoymaq mümkün deyil. Avropanın inkişaf eləmiş ölkələrindən, hətta ABŞ-dan da gedib İŞİD-ə qoşulanlar var. Rusiyadan 4 mindən artıq adamın qoşulduğu deyilir. Almaniyadan 180 nəfərdən artıq vətəndaş rəsmi rəqəmlərə görə gedib İŞİD-də vuruşub. Həmin şəxslərin içərisində islam etiqadlısı cəmi bir neçə nəfərdir. Belə olan təqdirdə İŞİD-çi elementlərin bəzilərinin geri dönüş təhlükəsinə görə Azərbaycanı terror təhlükəsi olan ölkələr sırasına daxil etmək əsassızdır. Azərbaycanın təhlükəsizlik orqanlarının bu proseslə bağlı çox ciddi addımlar atdığı məlumdur. O biri tərəfdən Azərbaycanın qanunvericilik sistemi çox çevik şəkildə dünyaya uyğunlaşdırıldı. İŞİD-ə qoşulmuş vətəndaşları vətəndaşlıqdan məhrum etmək kimi çox mühüm addım atıldı. Belə olan təqdirdə də düşünürəm ki, Dövlət Departamentindən Azərbaycana qarşı ədalətsiz münasibət göstərilib".

**Politoloq Natiq Miri** öncə terrordan dünyada heç bir ölkənin sığortalanmadığını dedi: "Hətta ABŞ və Avropanın böyük dövlətlərində son illərdə terror hadisələri baş verib. Azərbaycanda isə sevindiricidir ki, bu illərdə o cür hadisələr olmayıb. Dövlət Departamenti səmimidirsə bu məqamı nəzərə almalı idi. ABŞ kəşfiyyat informasiyalarına əsasən, bir çox ölkələrdə, o cümlədən Türkiyədə terror riskinin yüksək olması ilə bağlı tez-tez belə xəbərdarlıqlar edib. Bu mənada da öz vətəndaşlarını məlumatlandırır. Ancaq bu cür xəbərdarlığın kökündə bəzən ABŞ-ın geosiyasi maraqları da dayanır ki, həmin maraqlar heç də terror riskinin olduğu göstərilən ölkənin xeyrinə deyil. Adətən Vaşinqton özünün də prosesdə iştirak etdiyi həmin terror hadisələri ilə bağlı, hadisə baş verməzdən öncə ictimai rəyi formalaşdırmağa çalışır. Yəni belə informasiyalarla ictimai rəy formalaşdırır, sonra da bu cür hadisələr yaşanır. Bununla da görüntü yaradılır ki, ABŞ belə təhlükələrlə bağlı əvvəlcədən xəbərdarlıq edib. Əslində isə bu terroru yönəldən ölkənin özü də ABŞ-dır. Söhbət İŞİD və PKK terrorçularından gedir. Bir neçə yüz Azərbaycan vətəndaşının illər öncə gedib İŞİD-ə qoşulmasını Dövlət Departamenti xəbərdarlığına əsas kimi göstərirsə tamamilə yanlışdır. Əvvəla, artıq həmin vətəndaşların bir qisminin həyatda olmadığı bəllidir. Tək-tək sayda ölkəyə geri dönənlər barədə isə müvafiq orqanlar ölçü götürür. İkincisi, PKK və İŞİD-i birmənalı dəstəkləyən və yönəldən ölkə məhz ABŞ-dır. Bu, artıq təkzibolunmaz dəlillərlə sübut olunub. Ona görə də Azərbaycana yönəlik bu xəbərdarlıq heç də ölkəmizi sevdikləri üçün deyilən bir xəbərdarlıq deyil. Ona görə bu məsələdə ehtiyatlı olmalıyıq. Azərbaycan Xarici İşlər Nazirliyi ABŞ-ın həmin açıqlamasını təəccüblü bəyanat kimi xarakterizə edib. Ancaq açıqlamanı təəccüblü adlandırmaq lazım deyil. Onu fundamentindən analiz edib, altında hansı geosiyasi maraqların, mesajların verildiyini ortaya qoymaq və ona adekvat reaksiya verərək, təhlükəsizlik məsələlərini gücləndirmək gərəkdir".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 8 (6897) 13 yanvar 2018



# “Gətir mandatı, qoy masanın üstünə”

Samir SARI

**Deputatların cəzalandırılması hüququnun Mərkəzi Seçki Komissiyasına verilməsi əslində, türkün sözü, manidar olmaqla yanaşı, aktual və dartışmalı mövzudur.**

Hərçənd artıq dartışmaqdan keçib, çünki bu qanunu deputatlar özləri qəbul ediblər, rəsmən təsdiqlənib və qüvvəyə minib.

Artıq birmənalı şəkildə demək olar ki, deputatların hazırda iki müdiri var: spiker Oqtay Əsədov və MSK sədri Məzahir Pənahov. Hətta deputatların taleyinə təsir etmək xüsusunda ikinci birincidən güclü kimi görünür.

Təsəvvür edin ki, deputatlardan biri eyzən ya çox danışır, ya da tərsinə söhbətlər edir, bu halda spiker nə edə bilər? Heç nə, uzağı onun nəzərinə çatdıra bilər ki, özünü yaxşı apar, lakonik danış, mübahisə eləmə və s.

Məsələn, o vaxt mərhum spiker Murtuz Ələsgərov keçmişdə müəllim olmuşdu deyə, həmişə özünü auditoriyada, tələbələrin qarşısındaymış kimi aparırdı, olurdu ki, şuluqluq edən deputata deyirdi: “İndi səni çıxaracam bayıra”.

Ancaq Oqtay müəllimdə həmin problem yoxdur, indiki deputatlar şuluqluq eləmirlər, ona görə də onları auditoriyadan qovmaqla hədələmək effektsiz olar.

Bunun əvəzində MSK sədri Məzahir Pənahovun artıq hansısa deputatı mandatdan məhrum etmək, yəni işdən çıxartmaq hüququ var.

Deputatın MM üzvlüyündən, yəni deputatlıdan çıxarılmasının şərtləri çoxdur. Bu müddəa konstitusiyamızda da var. Məsələn, günün birində deputata vəzifə verərlərsə, İH başçısı, nazir müavini və ya nazir təyin edərlərsə, onun mandatı ləğv olunur. Burası xub. Bu çoxdan lazım idi. Bir ara nazirlərin çoxu deputat idi. Yeddi vəzifəsi olan deputatlar da vardı.

Bir şərt də var: deputat günün birində əlinə təsbeh götürsə, hüzr yerlərinə gedib mollalıq eləsə, yaxud da məsciddə axund vəzifəsinə keçsə, mandatdan məhrum edilməsi, Allahın izni, qanunun tələbi ilə halal sayılır. İndilikdə bu, o qədər də aktual məsələ deyil. Çünki deputat olduqdan sonra mollalıq və ya axundluq edən şəxsə rast gəlinməyib. Əvəzində elə axundlar və ya mollalar var ki, bu saat deputat olmaq istərlər. Görünür, qanun onların qarşısını almaq üçündür ki, gəlib MM-də çıxışlarına “bismillah”la başlamasınlar.

Deputat biznesmenlik də edə bilməz, etsə, mandatını itirə bilər. Amma hamımız bilirik ki, indiki deputatların tam əksəriyyətinin biznesi var. Məsələn, restoranları, mağazaları, karxanaları (söhbət öz dilimizdəki “karxana”dan gedir, bildiyimiz kimi anadolulu qardaşlarımız “karxana” deyəndə pis yeri nəzərdə tuturlar), cürbəcür sexləri-filanları olan deputatlarımız N qədərdir. Əgər bu qanun ciddiyyətlə tətbiq olunsa və MSK biznesi olan deputatların mandatını əlində alsa, parlamentdə ən azı 75 yer boş qalar.

İndi gələk zurnanın özünü biabır edən səs çıxardığı yerə. Qüvvəyə minən qanunun 7-ci maddəsində deyilir ki, deputat üçün qanunla müəyyən edilmiş etik davranış qaydalarını kobud surətdə pozduqda, MSK onun mandatını ləğv edə bilər.

Bu, o deməkdir ki, deputat hər zaman təmkinli, sakit olmalıdır, ikidə bir irəli yeriyib sədarətə acıqlanmamalıdır, həmkarının üstünə qolaylanmamalıdır, latayır danışmamalıdır, bir sözlə, parlamentdə, eləcə də orda-burda quşlamamalıdır.

Bax, bu, bir az ədalətsizlik kimi görünür. Parlamentin bəzəyi dava-şavadır. Yapon və cənubi koreyalı deputatlardan çox parlamentdə dalaşan yoxdur, amma gedin, onların inkişafına baxın. Heç getməyə də ehtiyac yoxdur, onların inkişafı hər gün avtomobil, kondisioner, soyuducu, kompüter, mobil telefon və sair yüzlərlə inventar şəklində ölkəmizə gəlir. Yaponlar və cənublu koreyalılar bu inkişafa dalaşa-dalaşa nail olublar.

İndi isə deputat parlamentdə söz güləşdirməyə qorxacaq ki, birdən Pənahov onu işdən çıxarar. Düzdür, bu, elə də mexaniki məsələ deyil, gərək ortada ciddi göstəriş, təqdimat-filan olsun, amma hər halda prosesin mexanizmi bəllidir və proseduru qəliz deyil, əlinə, dilinə, felinə (indilikdə belinə yiyə durmayanlara qorxu yoxdu) sahib olmadınsa, gətir mandatı qoy masanın üstünə.

**Köhnə vaxtlarda kommunistlərə də elə deyərdilər: “Gətir partbileti...”**

# “2018-də qeyri-neft sektorunda sürətli inkişaf davam edəcək”

## İqtisadçı-ekspertlər dövlət başçısının cari illə bağlı açıqladığı planları şərh etdilər; bu illə bağlı pozitiv proqnozlar verilir

**Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxış edib və önəmli mesajlar səsləndirib. Ötən ilin iqtisadi yekunlarını müsbət dəyərləndirən dövlət başçısı bir çox anonslar da verib. İlham Əliyev bildirib ki, bu il üç “ASAN xidmət” mərkəzi fəaliyyətə başlayacaq - Mingəçevir, İmişli və Şəki şəhərində.**

Beləliklə, “ASAN xidmət” mərkəzlərinin sayı 15-ə çatacaq. Dövlət başçısı bu il beş şəhərdə “ASAN xidmət” mərkəzinin tikintisinə başlanılması ilə bağlı göstəriş verdiyini də qeyd edib: “Onlar yəqin ki, 2019-cu ildə istifadəyə veriləcək. Beləliklə, bir ildən sonra bizim 20 ”ASAN xidmət" mərkəzimiz olacaq".



Fikrət Yusifov

**Bundan başqa, prezident bu ilin investisiya proqramında Bakı-Yalama dəmir yolunun təmiri, yenidən qurulması məsələsinin də əksini tapdığını deyib:** “Eyni zamanda, Bakı-Astara dəmir yolunun xüsusilə dənizə yaxın olan hissəsinin köçürülməsi məsələsi də öz həllini tapacaq. Bu həm turizm, həm də yükdaşımalar üçün böyük əhəmiyyəti olacaq. Turizmin inkişafı üçün daha bir layihə dövlət investisiya proqramına salınıb. Bu da Ləki-Qəbələ dəmir yolunun tikintisidir. Bu gün Qəbələ Bakıdan sonra Azərbaycanda ikinci turizm mərkəzidir. Dəmir yolunun Qəbələyə çatdırılması turistlərin axınını daha da sürətləndirəcək. Növbəti illərdə Şahdağ xizək kurortuna da dəmir yolunun çəkilişini təmin etmək bizim planlarımızdadır. Bu layihəni biz əlbəttə ki, Bakı-Yalama dəmir yolu ilə uzlaşdırmalıyıq. Çünki Şahdağ dəmir yolu ilə getmək üçün gərək o sürətli yol olsun. İndi Bakı-Yalama yolu o vəziyyətdə deyil ki, orada sürətli qatar işləyə bilsin. Bakı-Yalama yolu ilə Qusar rayonuna gedən dəmir yolu bir layihədə öz həllini tapacaq. Bu da bizim planlarımızda var”.

**Sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov isə “Yeni Müsavat”a açıqlamasında Prezidenti İlham Əliyevin ölkənin iqtisadi inkişafı ilə bağlı çıxışını dəyərləndirib. Qeyd edib ki, prezident sonuncu iclasdakı çıxışında yola salınmış ildə ölkə iqtisadiyyatında bütövlükdə pozitiv nəticələrin, qeyri-neft sektorunun ayrı-ayrı sahələrində isə daha müsbət göstəricilərin əldə edildiyini bildirdi:** “İqtisadi tənəzzüllə müşayiət olunan 2016-cı ildəki geriləmələrin son bir ildə aradan qaldırılması ilk növbədə real sektorun inkişafına dair hökumətin qəbul etdiyi qərarların icrası nəticəsində mümkün ola bildi. 2017-ci ildə ölkə iqtisadiyyatı bütövlükdə pozitiv nəticələrlə yekunlaşmaqla yanaşı qeyri-neft sektorunda 2,5 faiz, o cümlədən, qeyri-neft sənayesində 3,6 faiz, kənd təsərrüfatında 4,1 faiz artım əldə olundu, ixrac 19 faiz, qeyri-neft ixracı isə 24 faiz arta bildi, ticarət balansının müsbət saldosu 6,2 milyard dollara çatdı, valyuta ehtiyatları isə əlavə olaraq 4,5 milyard dollar artdı. Ümumi iqtisadi durumun yaxşılaşmasında neft amilinin də rolunu qeyd etmək lazımdır. Yola saldığımız ildə neftin qiymətləri yüksələrək əsasən sabit qalıb. Bundan başqa, Azərbaycan iqtisadi gerilikləri aradan qaldıraraq ölkə iqtisadiyyatının rəqabətqabiliyyətlilik göstəricisi üzrə iki pillə irəliləyib, əldə etdiyi uğurları beynəlxalq səviyyədə təsdiq etdi”.

**Sabiq nazir vurğuladı ki, 2017-ci ilin ən mühüm iqtisadi hadisəsi “Azəri-Çıraq-Günəşli” yatağı üzrə kontraktın müddətinin 2050-ci ilə qədər uzadılması və Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevirmiş Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı oldu:** “Bu iki layihənin reallaşdırılmasından daxil olan vəsaitlər ölkə iqtisadiyyatının bundan sonrakı dönəmlərdə daha sürətlə inkişaf etdirilməsinə yaxşı zəmin yaradacaq. Yola saldığımız 2017-ci ildə ölkə iqtisadiyyatının və onun maliyyə durumunun sabitləşməsi hökumətə Cənub Qaz Dəhlizi layihəsini uğurla icra edilməyə, Şimal - Cənub Nəqliyyat Dəhlizi üzrə işlərin tam başa çatdırılmağa, Bakı-Tbilisi-Qars dəmir yolunu istifadəyə verilməyə, ölkə daxilində 1300 kilometrə qədər avtomobil yolları salınmağa, 133 yeni məktəb tikməyə, 14 məktəbi əsaslı təmir etməyə, 500-ə yaxın məktəbdə isə cari təmir işlərinin başa çatdırılmağa, 30 tibb müəssisəsinin tikib əsaslı təmir edilməyə, 2300 məcburi köçkün ailəsinə yeni mənzillər tikilib verməyə imkan yaratdı”.

**F.Yusifovun sözlərinə görə, 2018-ci ildə ölkə iqtisadiyyatının qeyri-neft sektorunun sürətli inkişafı istiqamətində işlər davam etdiriləcək:** “Cari ildə Hacıqabul, Masallı və Sabirabad sənaye məhəllələrinin yaradılması, Mingəçevirdə Yüngül Sənaye Parkının ilk fabriklərinin açılışı, Sumqayıt Kimya Sənaye Parkında üç müəssisənin istifadəyə verilməsi, on yeni xalça fabrikinin açılışı, iki min kilometrə qədər avtomobil yolların çəkilməsi nəzərdə tutulur. Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı bütün işlərin başa çatması nəticəsində Azərbaycan üzərindən böyük yükdaşımalar həyata keçiriləcək ki, bu da öz növbəsində dəmir yolunun sürətini artmağı tələb edir. Ona görə, də cari ildə bu istiqamətdə mövcud olan dəmir yollarının daha da yaxşı vəziyyətə gətirilməsi nəzərdə tutulur. Bu məqsədlə Bakı-Yalama və Bakı-Astara dəmir yolunun tədricən yenidən qurulması, təmiri ilə bağlı işlər görüləcək. Turizmin inkişafı üçün Ləki-Qəbələ dəmir yolunun tikintisi, Şahdağ xizək kurortuna da dəmir yolunun çəkilişini təmin etmək görüləcək işlərin sırasına daxildir. Cari ildə Azərbaycan iqtisadiyyatına yeni investisiyaların cəlb edilməsi, yerli məhsulların xarici bazarlarda daha geniş şəkildə təqdim olunması, qeyri-neft sektorundan ixracın həcminin daha da artırılması istiqamətində işlər daha intensiv xarakter alacaq. İşsizliyin aradan qaldırılması, özünüməşğulluq proqramının uğurla icra edilməsi, ən azından 20 min köçkünün yeni mənzillərlə təmin olunması, 137 modul tipli məktəbin tikintisi, Bakı şəhərində isə 12 məktəbin əsaslı təmiri, altı şəhərdə yeni mərkəzi rayon xəstəxanasının istifadəyə verilməsi və s. kimi sosial tədbirlərin reallaşdırılması da bu ildə baş verəcək. Bu il Mingəçevir, İmişli və Şəki şəhərində ”ASAN xidmət" mərkəzi fəaliyyətə başlayacaq və bununla da “ASAN xidmət” mərkəzlərinin sayı 15-ə çatacaq və daha beş şəhərdə “ASAN xidmət” mərkəzinin tikintisinə start veriləcək".

❑ Nərgiz LİFTİYEVA

# "Cümhuriyyətin 100 illiyi ilə bağlı geniş amnistiya verilə bilər"

## Siyavuş Novruzov: "İqtidar həmişə dialoq aparmağa hazırdır, amma nəyin dialoqunu aparaq?"

**Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, deputat Siyavuş Novruzov "Yeni Müsavat"ın suallarını cavablandırıb.**

***- Siyavuş bəy, dövlət başçısı 2018-ci ili "Cümhuriyyət ili" elan edib. Hakim partiyada bununla bağlı hansı tədbirlər görülür, nələr planlaşdırılır?***

- Cənab prezidentin çox uzaqgörənlik edərək 2018-ci ili "Cümhuriyyət ili" elan etməsi bir daha Azərbaycan Demokratik Cümhuriyyətinə olan diqqətin nümunəsidir. İstər ümummilli lider, istər cənab prezidentin hakimiyyəti dövründə mütəmadi olaraq Cümhuriyyət yaradıcılarının yubileyləri, onların xatirəsinin əbədiləşdirilməsi ilə bağlı addımlar atılıb. Hesab edirəm ki, ən böyük addım müstəqil Azərbaycan dövlətinin bərpasıdır. Cümhuriyyət qurucularının ən böyük arzusu məhz elə müstəqil Azərbaycanın olmasıdır. Söhbət kağızda, hansısa bir qərarda deyil, həyatda, fəaliyyətdə. Nəzərə alsaq ki, vaxtilə Cümhuriyyət qurulanda təxminən 20 ölkə tərəfindən, konsulluq vasitəsilə tanınırdısa, indi BMT-yə üzv olan ölkələrin əksəriyyəti Azərbaycanın ərazi bütövlüyünü tanıyır. O cümlədən Azərbaycan MBT-yə sədrlik etmək hüququna qədər yüksəlmiş bir dövlət səviyyəsinə qədər gəlib çıxıb. Bu da Cümhuriyyət qurucularının arzusu idi ki, Azərbaycanın üçrəngli bayrağı əbədi ucalsın, dünyanın hər yerində dalğalansın. Bu gün ayrı-ayrı beynəlxalq təşkilatlarda, dövlətlərdə, o cümlədən beynəlxalq yarışlarda, dövlət başçıları səviyyəsində keçirilən mühüm konfranslarda Azərbaycan bayrağı dalğalanır. Bu gün müstəqil, azad, iqtisadi cəhətdən qüdrətli, siyasi cəhətdən güclü və nəinki regionda, dünyada müstəqil siyasət aparan müasir Azərbaycan var. Möhtərəm prezidentimizin rəhbərliyi altında bu quruculuq işləri davam edir. İqtisadiyyatımız nə qədər güclənirsə, Azərbaycan gözəlləşirsə, ölkə vətəndaşının siyasi və sosial hüquqları tamamilə öz həllini tapırsa, bu, bir o qədər Cümhuriyyət dövrünə verilən qiymət və töhfədir.

***- Bu gün daha çox müzakirə olunan məsələlərdən biri də Cümhuriyyət qurucularının, konkret olaraq Məhəmməd Əmin Rəsulzadənin məzarının Türkiyədən Azərbaycana köçürülməsi, həmçinin qurucular abidənin qoyulmasıdır. Bununla bağlı YAP-ın mövqeyi necədir?***

- Cümhuriyyətlə bağlı abidə var. Amma bununla yanaşı, bütün Cümhuriyyəti əks etdirən bir bağın, parkın salınması və burada heykəllərin qoyulması ilə bağlı da prezidentin fərmanı var. Bununla bağlı tender elan olunub, təkliflər daxil olmaqdadır. O təkliflər əsasında da belə bir parkın yaradılması nəzərdə tutulur. O cümlədən Cümhuriyyətin ayrı-ayrı nümayəndələrinin müxtəlif ölkələrdə olan məzarları var. Məsələn, Türkiyədə, Gürcüstanda, Fransada, Avropanın ayrı-ayrı ölkələrində həm Cümhuriyyət əsgərlərinin, həm siyasi xadimlərin, diplomatların, yaradıcıların, qurucuların məzarları var. Mən hesab edirəm ki, bununla bağlı konkret ciddi ictimai müzakirələr keçirilməlidir. Müzakirələr aparılmalıdır ki, onların məzarların gətirilməsi bizə nə verə bilər? Yaxud orda olması nə verə bilər, bunun əhəmiyyəti nədən ibarətdir? Tutaq ki, Məhəmməd Əmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Topçubaşovun, digərlərinin məzarı bura gətirilsin, panteon kimi düzəldilsin. Yaxud da orda qalmaq şərti ilə bütün dünya ölkələrinin diqqəti cəlb olunsun ki, vaxtilə Azərbaycanda Demokratik Respublika olub və sovet işğalı nəticəsində süquta yetirilib, Cümhuriyyət nümayəndələrinin bir hissəsi sui-qəsdə məruz qalıb, onlar ayrı-ayrı ölkələrdə erməni terrorçularının və bolşevik terrorunun qurbanı olublar, bəziləri vətəndən didərgin düşüblər və s. Hesab edirəm bunun əhəmiyyətinin nə dərəcədə olması ilə bağlı istər Elmlər Akademiyası, istər Milli Məclis, istər ölkədəki ictimai-siyasi təşkilatlar, QHT-lər bir ictimai müzakirə təşkil etməlidir. Fikrimcə, məzarların ölkəyə gətirilməsində elə bir problem yoxdur. Amma əhəmiyyəti baxımından ümumxalq müzakirəsinə ehtiyac var.



**"Cümhuriyyət qurucularının məzarların ölkəyə gətirilməsində elə bir problem yoxdur"**

***- Dediklərinizdən belə anlaşılır ki, Cümhuriyyət qurucularının məzarlarının Azərbaycana gətirilməsi ilə bağlı siyasi iradə var, eləmi?***

- Təbii. Bu, Azərbaycanın sərvətidir, Azərbaycan xalqınındır. 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına səs verənlər arasında kommunist də, bitərəf də, millətçi də, cəbhəçi də var idi. Amma fərqi yox idi, bunlar Azərbaycan xalqının nümayəndələri idi. Parlamentdəki 350 nəfər hamısı Azərbaycanın müstəqilliyinə səs verib. Konstitusiya Aktında da qeyd olunub ki, Azərbaycan dövləti Azərbaycan Demokratik Cümhuriyyətinin varisidir. Yeni varis hər hansı bir fərd, şəxs, yaxud hansısa partiya deyil, müstəqil Azərbaycan dövlətidir. Bəziləri bunu öz adına çıxır, hətta onunla bağlılığı olmasa da... Ümumiyyətlə, o anlayışdan tamam uzaq olan, həm ictimai fəaliyyətləri, həm düşüncə tərzi, həm dünyagörüşü, həm bu gün xalqına, dövlətinə, dövlətçiliyinə münasibəti fərqli olan insanlar bir adla bunu özününküləşdirməyə cəhd göstərir ki, bu da mənasız bir şeydir. Burada söhbət sırf dövlətin varisliyindən gedir. O dövlətin varisi bugünkü müstəqil, inkişaf etmiş Azərbaycandır. Ona görə də dövlətin onlarçün nə etməsinə heç bir siyasi qəbahət yoxdur. Əksinə, bununla bağlı lazımi addımlar atılıb, bundan sonra da atıla bilər.

***- Fəxri Xiyabanda Rəsulzadə, ya Xoyskinin məzarı olmalı ikən, orada bolşeviklərin məzarları var. Cümhuriyyət ilində onların məzarları başqa yerə köçürülsə, daha yaxşı olmazmı?***

- Bu insanlar tarixdə olublar və o zaman orda dəfn ediliblər. Bu gün onların məzarının köçürülməsi, aparılması... Bu, böyük bir tarixdir. Rusiyanın ərazilərində Leninin heykəli bu gün də durur.

***- Amma onların məzar daşına "müsavat cəlladları" tərəfindən güllələndiyi qeyd olunub. O dövrdə dövlət quran müsavatçılara "cəllad" adı qoyulub. Bu məsələyə münasibətiniz necədir?***

- Aydındır. O dövrdə bolşeviklərin fikirləri bundan ibarət idi. O baxımdan bunu tarixçilər geniş şəkildə müzakirə etməli və konkret qərar qəbul etməlidir. Bu, hər hansı bir fərdin fikri ola bilməz. Burada ictimaiyyətin, xalqın qərarı olmalıdır. Əgər belə bir qərar olacaqsa, təbii ki, onu yerinə yetirmək böyük bir güc tələb eləmir.

***- Cümhuriyyət ilində həm də prezident seçkiləri keçiriləcək. Bu il iqtidar-müxalifət dialoqu, ümummilli məsələlərin müzakirəsi baş tuta bilərmi?***

- Dialoq o şəraitdə olur ki, çox gərgin, antaqonist proseslər baş verir, ölkədə xaos, anarxiya hökm sürür. Elə kataklizmlər baş verir ki, bunu aradan qaldırmağa iqtidarın gücü çatmır, ona görə də bütün qüvvələri çağırır ki, bir yerdə səfərbər olunaq, bunları aradan qaldıraq və s. Bu gün Azərbaycanda ictimai-siyasi sabitlik var. İqtidar həmişə dialoq aparmağa hazırdır, amma nəyin dialoqunu aparaq? Seçki prosesidirsə, Seçki Məcəlləsi var, bu Məcəllənin tələbləri var. Seçkinin müddəti göstərilib, hər bir siyasi təşkilat özünün platformasını hazırlamalıdır, ona əsasən çıxış etməlidir. O halda nəyi müzakirə edəcəyik, mən başa düşmürəm. Dəfələrlə görmüşük, seçki elan olunub, namizədin irəli sürülməsi müddətinin bitməsinə 5 gün qalmış hələ hər hansı bir partiya öz namizədini müəyyənləşdirməyib. Xatırlayırsınızsa, Milli Şura adlı dərnəyin özündə də əvvəl dedilər Rüstəm İbrahimbəyovdur namizədimiz, - bilə-bilə ki, o, Azərbaycan vətəndaşı deyil, namizədliyini irəli sürə bilməz - sonra isə az bir müddət qalmış Cəmil Həsənli namizəd oldu. Yəni bunların hamısı bəhanədir. Müəyyən təşkilatlar imza toplaya bilmir, xalq onlara etimad göstərmir. Ona görə də gah onun, gah bunun namizədliyi üzərində dayanırlar. Sonra da deyirlər şərait yaradılmadı, seçki müddəti az oldu və s.

- Bəs, Cümhuriyyətlə bağlı hər bir təşkilat dəyirmi masa keçirə bilər. Cənab prezidentin fərmanı var. Orada Elmlər Akademiyası, Milli Məclis, ayrı-ayrı dövlət strukturlarının qarşısındakı vəzifələr müəyyən olunub. O cümlədən hər bir siyasi partiya özünün Cümhuriyyət ili ilə bağlı proqramını hazırlamalıdır. Məsələn, YAP özünün bunu bağlı proqramını hazırlayır, növbəti həftə İdarə Heyətində bu məsələlərə baxılacaq, öz təsdiqini tapacaq.

***- YAP Cümhuriyyət tədbirlərinə müxalifəti dəvət edəcəkmi?***

- Təbii ki. Keçirilən tədbirlərə bütün Azərbaycan cəmiyyəti dəvət olunacaq. Amma hər bir siyasi partiyanın hüququ var ki, Cümhuriyyət ili ilə bağlı tədbir keçirsin, buna heç kəs qadağa qoymayıb. Tutalım götürək Müsavat Partiyasını, Milli Dirçəliş, Milli İstiqlal, Sosial Rifah, Sosial Demokrat partiyaları Cümhuriyyətlə bağlı tədbir keçirirsə, buna kim nə deyəcək? Tədbirini təşkil eləsin, dəvət eləsin, müzakirələr, diskussiyalar, debatlar həyata keçirsin. İndi internet əsridir. Keçirilən diskussiyalarda bir neçə milyon iştirak edir, facebookda, ya digərlərində. Yəni bu müzakirələri masa arxasında deyil, virtual məkanda da həyata keçirmək mümkündür.

***- Müsavat Partiyası təşkil etdiyi tədbirə sizi dəvət etsə, iştirak edərsinizmi?***

- Təbii ki, hər hansı bir partiya bizi dəvət edəcəksə, müzakirə edib bununla bağlı öz qərarımızı verəcəyik.

***- Cümhuriyyət ilində amnistiya imzalana bilərmi?***

- Ola bilər. Kimsə amnistiya aktı layihəsini təqdim edə bilər. Hər bir deputatın hüququ var. Dövlət başçısı da amnistiya ilə bağlı təşəbbüslə çıxış edə bilər. Təbii ki, əfv hər zaman olur, bu, problem deyil. Amma Cümhuriyyətin 100 illiyi ilə bağlı geniş amnistiya da verilə bilər. Yəni müxtəlif tədbirlər ola bilər.

***- Bir sıra tanınmışlar var ki, məsələn, Rüstəm İbrahimbəyov, Rəsul Quliyev və digərləri, illərdir ki, Azərbaycana gəlmək istəyirlər. Cümhuriyyət ilində onların vətənə gəlişinə yaşıl işıq yandırıla bilərmi?***

- Rüstəm İbrahimbəyovun gələ bilməməsinin səbəbi vergi ilə bağlı törətdiyi cinayətlə əlaqədardır. Rüstəm İbrahimbəyovun hər hansı siyasi baxışla bağlı problemi yoxdur.

***- Bəs, Rəsul Quliyev?***

- O da həminki qaydada. Onda hansısa bankdan pul oğurlayıb qaçan adamla digərləri arasında fərq qoyulmamalıdır? Onda biz bütün oğrulara, quldurlara deyək ki, müstəqilliyin 100 illiyidir, durun gəlin?! Oğurlamısınız, vergidən yayınmışınız, Allah canınızı sağ eləsin! Bu gün Azərbaycanda siyasi baxışlarına görə hər hansı bir şəxs məsuliyyətə cəlb olunmur. Bu və ya digər şəkildə vergidən yayındığına, yaxud götürdüyü kreditləri qaytarmadığına, mənimsənilməsi, vəzifə səlahiyyətlərini aşmasından söhbət gedir.

**"Onda biz bütün oğrulara, quldurlara deyək ki, müstəqilliyin 100 illiyidir, durun gəlin?!"**

***- Bəs, ölkədə iqtisadi amnistiya elan oluna bilərmi?***

- Bu mənim səhəm olmadığı üçün dəqiq bilmirəm...

**Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 8 (6897) 13 yanvar 2018



# Tutu, topu tut

Zamin HACI
zaminhaci@gmail.com

*“Hakkaten sence ne oluvecek bu işlee*
*Valla nolcek olecee bişey yok*
*Dönecez dönecez aynı yere geleceez*
*Yavv ben şimdi deyom ki yaniii*
*Bu esas tütün tütün meselesi..."*
*(Cem Karaca, “Bindik bir alamete” şarkısından)*

**Əgər bu il ADR-in 100 illiyi tamam olmasaydı yəqin 2018-i “Ana dili” ili elan etmək lazım gələcəkdi. Ayrı yolumuz yoxdur. Bu millətə hər şeyi gərək başdan öyrədəsən. Əlifbadan. Tutu, topu tut. Əli, pasportu al.**

Ancaq yüzillik ortaya düşmüşdür və hökumət bəzi işlər görməyə məcburdur. Hərçənd, heç bilmirəm nə edəcəklər, çünki ADR (bəzən bunu AXC - Azərbaycan Xalq Cümhuriyyəti kimi də yazırlar, ancaq məsləhət deyil, çünki adama AXC-Müsavat cütlüyünün hakimiyyət əsrini xatırladır) haqqında nə işlər görmək mümkün idisə hamısı hələ 2008-ci ildə - 90 illik yubiley zamanında görülüb qurtarmışdır. Rəsulzadənin heykəlinin BDU-nun qabağında qoyulmasından tutmuş, ümumiyyətlə cümhuriyyət abidəsinə qədər. Yadımıza gəlir, o çağacan Bakıda ADR-i ancaq Narxozla Əlyazmalar arasında dar dalana təpişdirilmiş bir obelisk xatırladırdı. Yeri gəlmişkən, o daş dirəyin adını bizim mediada bəzən yanlış olaraq “stella” yazırlar. Birincisi, o quruluş, dizayn etibarilə daha çox obeliskdir. İkincisi, stela ilə stella arasında böyük fərq vardır - Stella qadın adıdır, qədim latıncada ulduz deməkdir. (“Qədim latınca” da necə gülünc ifadə idi yazdım... Guya çağdaş latınca da varmış). Belə orfoqrafik məsləhətlərimizin mənası vardır, az sonra görərsiniz.

Uzun sözün qısası, bu hakimiyyət 90 illikdə ADR üçün hər şeyi elədi. Bəs indi nə edəcəklər, şəxsən mənə maraqlıdır. Ola bilsin bu dəfə Rəsulzadənin Bakının mərkəzindəki heykəlini qızıl suyuna çəkək. Dərsliklərdə, tarix kitablarında “Dövlətimizin banisi” qrafasına Rəsulzadənin adını 36-lıq şriftlə basaq. İndiyə qədər 22-millimetrlik şrift idi. Fəxri Xiyabana gətirdiyimiz cümhuriyyət qurucularını təzədən çıxardıb basdıraq. Hər halda, gəlin zamanı qabaqlamayaq, hələ ilin qurtarmağına 11 ay yarım qalmaqdadır.

Girişdə yazdığım kimi, dil məsələsi böyük diqqət mərkəzindədir. Hər gün hökumət təzə-təzə orfoqrafiya, orfoepiya, fonetika, qrammatika, nə bilim, sintaksis-filan qaydaları qayırır, millətə yazıb-oxumağı, deyib-gülməyi, çalıb-çağırmağı öyrədir. Bizə göstərilən bu qayğıya görə Füzuli baramaçıları, Lənkəran mandarinçiləri, Zəngilan qaçqınları, Tovuz aşıqları, Ağdaş daşqınları (qafiyə üçün yazdım, mənası-zadı yoxdur) adından dərin minnətdarlığımızı bildiririk.

Misal üçün, dünən çap olunan fərmana əsasən, Ay, Allah, Azərbaycan, Bakı sözləri böyük hərflə yazılmalıdır. Ancaq kimsə hansısa həyəcanla “Ayy!” çığırsa bunu kiçik də yazmaq olar. Sadəcə, həyəcanın ölçüsünə baxır. Azərbaycanı kim balaca yazırmış, düzü bunu anlamadım. Şair Tofiq Bayram bu temada hələ sovet dövründə qızıl misralar yazmışdır: “Anaların bətnində, Ceyran gözlü körpələr, Pələngləşər, şirləşər, Azərbaycan deyəndə!”

Yaxud, paçti sözünü paşti, neujeli sözünü isə nujenni kimi yazmaq olmaz. Ana dilimizi qorumalıyıq, klyanus çesni slova. Ən məzəli tərəfi odur ki, bu yeni dilçilik qaydalarını təsdiqləmək üçün alimi-biəməllərimiz... Nazirlər Kabinetinə göndəriblər. Artur Rasizadəyə. Sözgəlişi, Artur müəllimin soyadını necə yazmaq üçün da ayrıca qanun qəbul eləmək lazım gələcəkdir, çünki biri Rəsizadə yazır, başqası Rasizadə. Rasi-zadə, Rusi-zadeh kimi yazanlar da var. Baş nazirinin soyadını bilməyən millətin axırı yoxdur. Bilməməkləri cəhənnəm, öyrənmirlər də. Axı hökumət bunun üçün zəruri şərait yaradıb, Kürdəxanıda universitet, Qobustanda akademiya açıbdır. Get otur, oxu, öyrən.

**Yazmaq, oxumaq, evlənmək, doğmaq, siqaret tüstülətmək, yaşamaq, ölmək... Hər şeyi gərək dövlət xətti ilə öyrənək. Dövlətçiliyi olmayan xalqlar necə də bədbəxtdir.**



# Ermənistan qarışır: müxalifət yeni hərəkatla hədələdi

## Yanvarın 19-u yaxınlaşdıqca işğalçı ölkədə daxili gərginlik artır; bahalıq əleyhinə kütləvi etirazlar siyasi etirazlara çevrilə bilər; “Ermənistana investisiya yatırımı ildən-ilə azalır, ölkədən kapital axını güclənir, Ermənistan borc içində çabalayır” - yerli iqtisadçılardan SOS siqnalı...

**“Ac qılınca çapar” deyilir Azərbaycan atalar məsəlində. Ancaq bu məsəl indi ən çox Ermənistandakı sosial-iqtisadi durumla bağlı yada düşür. Xəbər verdiyimiz kimi, təzə il başlayan kimi işğalçı ölkədə zəruri ərzaq məhsullarının qiyməti qalxmağa başlayıb. Səbəb həm də yanvarın 1-dən vergi və aksiz dərəcələri ilə bağlı bəzi qanunverici aktların qüvvəyə minməsi ilə bağlıdır.**

**Təbii ki, daxildəki idarəçiliyin korrupsioner və monopolist xarakteri də öz rolunu oynayır. Bütün hallarda onsuz da səfalət içində yaşayan erməni əhalisinin sosial-iqtisadi durumunun nəticə etibarilə daha da ağırlaşması göz qabağındadır.**

Bu arada parlamentdəki müxalifətçi “Yelk” fraksiyasının təşəbbüsü ilə bahalaşma əleyhinə yanvarın 19-a təyin edilmiş kütləvi aksiyaya - etiraz marşına hazırlıq davam edir. Siyasi müşahidəçilərə görə, etiraz aksiyası daha geniş sosial təbəqələri əhatə edə və siyasi tələblərlə də müşayiət oluna bilər.

Məsələn, bu bir faktdır ki, hakim Sətrkisyan rejimindən indiki və keçmiş əsgər anaları, habelə hərbi xidmətdən möhlət hüququ ləğv edilmiş gənclər də bərk narazıdır. Bu yandan da bahalığın qaçılmaz elədiyi yeni çətinliklər, daha dözülməz hala gələn həyat şəraiti.

*****

“Prezident Serj Sərkisyanın qiymətlərin yumşaldılmasına yönəlik 10 yanvar müşavirəsi imitasiya xarakteri daşıyır”. “Yeni Müsavat”ın aravot.az saytına istinadən verdiyi məlumata görə, bunu adı çəkilən fraksiyanın və İrəvan Ağsaqqallar Şurasının üzvü David Xajakyan ölkədə bahalaşma dalğası ilə bağlı situasiyanı şərh edərkən deyib.

“Aydındır ki, həmin toplantı başlanan etiraz dalğasına müəyyən cavabdır, amma özündə böyük imitasiya komponenti daşıyır. Söhbət bahalaşmanı yumşaltmaqdan gedir, ancaq bu bahalığı elə hakim partiyanın daxili iqtisadi siyasəti yaradıb. Bahalaşmanı necə önləmək haqda düşünmək əvəzinə, onlar tapşırıq verirlər ki, onu necə yumşaltmaq olar? Bahalaşmanı yumşaltmaq yox, dayandırma lazımdır”, - deyə erməni deputat bildirib.

Onun sözlərinə görə, qiymət artımının qarşısını öncədən almaq olardı və ölkə prezidenti məhz bununla bağlı göstəriş verməli idi, yəni “gəlirə görə vergilərin və aksizlərin artırılmasını sıfırlamalı idi”.

Ölkədəki bahalaşmaya qarşı 19 yanvarda başlanacaq kütləvi etiraz aksiyasından danışan deputat yeni düzəlişlərin ləğvi uğrunda mübarizə aparacaqlarını da anons edib. “Mən düşünürəm ki, bu dəyişikliklərə nail olmaq üçün müvafiq baza var. Aydındır ki, hakimiyyət tələbimizə qoşulmasa, hərəkat daha da böyüyəcək. Onun startı isə yanvarın 19-da veriləcək”, - deyə müxalif siyasətçi faktiki, hakim rejimi hədələyib.

*****

“Ermənistanda ərzaq məhsullarının qiymətində artım getdikcə daha qabarıq şəkildə hiss edilməkdədir. Artım əhalinin 75%-nə təsir edir. Ölkə əhalisi gəlirlərinin təxminən yarısını qidaya sərf edir. Halbuki Avropada bu rəqəm 25-30 faizdir”. “Yeni Müsavat” xəbər verir ki, bu barədə İrəvanda jurnalistlərə açıqlamasında sosioloq Aqaron Adibekyan deyib.

Onun sözlərinə görə, inflyasiya Ermənistanda istehlakın səviyyəsinə və keyfiyyətinə dərhal neqativ təsir edir: “Çünki qiymət artımına uyğun əməkhaqqı və pensiyalar indeksasiya edilmir. Pensiyalar, əməkhaqqılar artırılmır, ölkə borc içində üzür. Xarici borcumuz 7 milyard dollara yaxınlaşır. Bizə borc verməyəcəklər, biz borc içində yaşayan ölkəyik”.

İqtisadçı ekspert həmçinin, guya ölkədə vətəndaşların iqtisadi aktivliyi hesabına işsizliyin azalması barədə rəsmi statistikaya inanmadığını qeyd edib.

*****

Öz növbəsində sabiq prezident Levon Ter-Petrosyanın başçılıq elədiyi Erməni Ümummilli Hərəkat Partiyasının iqtisadçısı Ovennsi İgityan Ermənistanda gündəlik tələbat malları və kommunal xidmətlərinin qiymətlərinin müəyyənləşməsində korrupsiya mexanizmlərinin rol oynadığını vurğulayıb. Onun sözlərinə görə, Ermənistan vətəndaşları regionun digər ölkələri və hətta Avropa ilə müqayisədə gündəlik tələbat mallarına daha çox pul xərcləyirlər.

“Bu, xeyli dərəcədə onunla bağlıdır ki, Ermənistanda kommunal tariflər müxtəlif korrupsiya sxemləri və maxinasiyalar sayəsində süni şəkildə şişirdilib. Mövcud vəziyyət ölkəni potensial investorlar üçün olduqca qeyri-cazibədar edir. Özü də elə bir zamanda ki, son illər Ermənistan iqtisadiyyatına xarici sərmayələrin həcmi durmadan azalmaqdadır. Paralel surətdə ölkədən kapital axını güclənib. Çünki bir çox erməni biznesmenlər ölkə iqtisadiyyatına sərmayə yatırmaq istəmirlər” - İgityan vurğulayıb.

Erməni iqtisadçının qənaətincə, 2018-ci ildə və ondan sonra ölkədə inflyasiya güclənəcək. “Hakimiyyət isə daxili subyektiv faktorları aradan qaldırmağa səy göstərməmək azmış kimi, üstəlik, daxili bazarı xarici obyektiv siyasi və iqtisadi faktorlardan qorumur”, - deyə o, sonda əlavə edib.

*****

Erməni sosioloq və iqtisadçıların həyəcan təbili çaldıqları hazırkı ağır sosial-iqtisadi durumun, ölkədən kapital axını və az sərmayə qoyulmasının, güclənməkdə olan inflyasiyanın baş səbəbi sözsüz ki, həll olunmamış Dağlıq Qarabağ problemidir. Odur ki, iqtisadçılar da daxil, Ermənistan ilk növbədə blokada şəraitindən çıxmaq, qonşu Türkiyə və Azərbaycanla normal iqtisadi-ticari əlaqələr qurmaq barədə düşünməlidirlər.

**Bu yöndə hələ ki təşəbbüs yoxdursa, deməli, işğalçı ölkə ən azından, çox gərgin bir yanvardan - “qara yanvar”dan keçməli olacaq.**

**❑ Siyasət şöbəsi, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 8 (6897) 13 yanvar 2018

# ABŞ seçkidə Kremlə "sürprizlər" hazırlayır

## Çoxşaxəli hücum taktikası ilə xalqı hakimiyyətə qarşı etirazlara qaldırmaq planı baş tutacaqmı...

**Rusiyada martın 18-də prezident seçkisi keçiriləcək. Seçki yaxınlaşdıqca ABŞ-dan Rusiyaya, xüsusilə də Vladimir Putin iqtidarına basqı artır. Artıq ABŞ Rusiyaya qarşı bundan sonrakı sanksiyalar üçün dörd sfera müəyyən edib. Bu halda, Rusiya prezidenti Putin üçün ən təhlükəli zərbə rus oliqarxlarına qarşı məhdudlaşdırıcı tədbirlər ola bilər.**

Bu barədə strateq.az ABŞ özəl kəşfiyyat-analiz şirkəti olan "Stratfor"un hazırladığı materiala istinadən bildirib. Qeyd olunur ki, hazırda ABŞ tərəfindən tətbiq edilən əsas sanksiyalar Rusiyanın Ukraynaya münasibətinə Donbasdakı münaqişədə iştirakına, MH17 sərnişin təyyarəsinin qəzaya uğramasına və Krımın ilhaqına görə tətbiq edilən sanksiyalardır. Bu tədbirlərə aşağıdakılar daxildir:

*-Rusiyanın 6 ən böyük bankı, 4 dövlət neft kompaniyası və 4 müdafiə müəssisəsinə avrobondların buraxılışının məhdudlaşdırılması;*

*-Rusiyanın enerji sahəsinə yönəlik olan, ABŞ kompaniyalarına dərin sularda neft və qaz çıxarılması üçün mal və texnologiyanın verilməsini və ixracını qadağan edən sanksiyalar;*

*-İkili təyinatlı malların göndərilməsinə qadağa qoyulması;*

*-Yüzlərlə rus hüquqi və fiziki şəxsinə qarşı sanksiyaların (səfərlərin məhdudlaşdırılması və aktivlərin dondurulması) tətbiqi.*

Hazırda qüvvədə olan sanksiyalar bəzi rus şirkətlərinə ("Sberbank" və neft nəhəngi "Rosneft" kimi) qərb investorları üçün istiqrazlar buraxmağa imkan vermir, ancaq onlar Rusiya hökumətinə veksellər (borc öhdəlikləri) buraxmağa mane olmur. Beləliklə, Kreml öz üzərinə suveren borc götürür və onu sanksiyalar altında olan şirkətlərə verir. 2017-ci ildə xarici investorların Rusiya dövlət borcuna investisiyası buraxılan istiqrazların ümumi həcminin (cəmi 25 mlrd. dollar) 5%-dən 30%-dək artdı. Ötən il inkişaf etməkdə olan bazarlarda rus dövlət istiqrazları qərb maliyyə şirkətləri arasında ən yaxşı olanlardan biri hesab edilirdi.

2018-ci ildə Rusiya hökuməti artıq çox zəifləmiş olan federal büdcəsini düzəltmək üçün əlavə olaraq 18 mlrd. dollar borc götürmək niyyətindədir. Rusiya iqtisadiyyatı resessiyadan (geriləmə) çıxır, lakin uzunmüddətli staqnasiya (durğunluq) dövrünə girir.

Bundan əlavə, Rusiya əhalisi və ölkənin çoxlu mühüm şirkət və bankları daha böyük çətinliklərlə qarşılaşır, iqtisadi sistemin sabitsizləşməməsi üçün Kremli öz üzərinə böyük maliyyə yükü götürməyə məcbur edir. Kreml, böyük ehtimalla, "üzdə" qala bilməsi üçün öz ehtiyat fondlarının əhəmiyyətli hissəsini sərf edəcək və beynəlxalq səviyyədə daha çox borc götürəcək. ABŞ-ın sanksiyaları Rusiyanı borcdan asılı hala gətirə bilər.



Məlumatda deyilir ki, sanksiyaların daha bir variantı prezident seçkisinə cəmi 1 ay qalmış ABŞ Maliyyə Nazirliyinin fevralda nəşr ediləcək ikinci hesabatının bir hissəsi olacaq. Bu hesabatda ən önəmli rus oliqarxları, onların gəlirləri, korrupsiya sübutları, onların xaricdəki biznes ələqələri və aktivləri, həmçinin gəlir mənbələri təqdim ediləcək. Onların ailələri və yaxın çevrələri, eynən aktivləri kimi, sanksiyalara məruz qalacaq. Bundan əlavə, onların uşaqlarına xaricdə təhsil almaq qadağan edilə bilər.

Məhdudlaşdırıcı tədbirlərin bu variantının tətbiq sferası qüvvədə olan fərdi sanksiyalardan kəskin fərqlənir. Artıq sanksiyaya məruz qalmış oliqarxlar öz aktivlərini əsasən Rusiya daxilində saxlayırlar və onlar da Rusiyanın xarici siyasətilə, konkret olaraq Ukraynadakı münaqişə ilə birbaşa bağlıdırlar. Bu siyahının Putinin şəxsi dostları olan oliqarxlar hesabına genişləndirilməsi, işin birbaşa Rusiya prezidenti Putinə hücuma yaxınlaşdığını göstərir.

Daha sonra qeyd olunur ki, əgər iri biznesmenlər məsuliyyət daşımadıqları Rusiya xarici siyasətinə görə ABŞ-ın hücumlarına məruz qalarlarsa, o halda onlar Putinə və onun administrasiyasına qarşı mübarizəyə qalxa bilərlər, bu da Rusiyanın elitar sistemini silkələyə bilər. Seçki dövründə belə bir vəziyyətin yaranması isə hakimiyyətə ciddi problemlər yarada bilər.

**Politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a bildirdi ki, ABŞ sanksiyaları genişləndirməklə Rusiyada prezident seçkilərinin gərgin keçməsinə, seçkilərdə və seçkidən sonrakı dönəmdə Putin hakimiyyətinə qarşı elitanın da qatıldığı xalq etirazlarının baş qaldırmasına nail olmaq istəyir. Vaşinqton martda keçiriləcək seçkiləri Kremli sıxmaq üçün fürsət görür. Bu fürsətdən maksimum istifadə etməyə çalışacaqlar: "Rusiyadakı ictimai rəyin yönləndirilməsi, onun xüsusilə mənfi çalarla yönləndirilməsi ABŞ xarici siyasətinin qarşısında duran əsas işlərdən biri sayıla bilər. Sanksiyaların kəskinləşdirilməsi narazılıqları daha da artıracaq. Fevral ayında Rusiyaya qarşı sanksiyaların yeni və daha kəskin variantları tətbiq ediləcək. Seçkiyə az qalmış buna gedilməsi təsadüfi deyil. Vaşinqton strateqləri hesab edir ki, bunun nəticəsində ölkədə sosial gərginliyin artması, əhalinin maddi güzəranının aşağı düşməsi və bir sözlə proseslərin sosial etirazlar formasına keçməsi mümkündür. Düzdür, bunu şübhəsiz Kreml də bilir və anti-tədbirlər hazırlayır. Amma sanksiyalar tətbiq edildəndən sonra Rusiyanın iqtisadi, sosial vəziyyəti şübhəsiz ki, aşağıya doğru inkişaf edəcək. Belə vəziyyətdə isə əhalinin hakimiyyətin mövcud siyasətindən narazılıqlarının artacağı dəqiqdir. Xalq etirazları fonunda keçirilən seçkinin nəticələrini böyük ehtimalla ABŞ və müttəfiqləri tanımayacaq. Bunun elan edilməsi də kütlələrin, xüsusən də müxalifətin daha da hərəkətlənməsinə təkan verəcək. Odur ki, Rusiyadakı seçkilərdə beynəlxalq təşkilatlar tərəfindən əsas diqqət ona yönləndiriləcək ki, seçkilərin qeyri-şəffaf olduğu və beynəlxalq normalara uyğun olmadığı barədə rəy yaradılsın. Bununla da Rusiya hakimiyyətinə əlavə təzyiq mexanizmi əldə ediləcək. Bir sözlə, Qərb, xüsusən də ABŞ seçki ilində Rusiya hakimiyyətinə çoxşaxəli hücum taktikasını tətbiq edir və edəcək. Kremli qarşıda ABŞ-ın "sürprizləri" gözləyir".

❑ **Etibar SEYİDAĞA, «Yeni Müsavat»**



# "Moskva Zemanın yenidən Çexiya prezidenti seçilməsində maraqlıdır, ancaq..."

## Şahin Cəfərli: "Rusiya inanmıram ki, Çexiyadakı prezident seçkisinə ciddi önəm versin"

**Yanvarın 12-13-də Çexiyada prezident seçkilərinin birinci turu keçiriləcək. Rəy sorğularına əsasən hazırkı prezident Miloş Zeman seçkinin favoritidir. Parlament respublikası olan Çexiyada prezident simvolik səlahiyyətlərə malik olsa da, Çexiyada prezidentin hökumətin formalaşmasında müəyyən səlahiyyətləri mövcuddur. İkinci müddətə namizədliyini irəli sürən 73 yaşlı Zemanı hazırkı hökumət başçısı da dəstəkləyir.**

Ümumilikdə 9 namizədin iştirak etdiyi seçkilərdə Zemandan sonra ikinci yerdə universitet müəllimi, akademik İrji Draquş gəlir. Bəzi müşahidəçilərə görə, seçkilər ikinci tura qala bilər və bu zaman Draquşun səsləri daha da çoxalacaq.

Qeyd edək ki, Çexiyada sonuncu parlament seçkilərində sabiq maliyyə naziri, milyarder iş adamı Andrej Babiş qalib gəlib. Babiş və hökuməti Avropa tərəfdarı, ölkənin avrozonaya daxil olmasının tərəfdarı olan. Eyni zamanda qaçqınlar əleyhdarıdır. Bir çoxlarına görə, Zeman daha çox Rusiya hakimiyyətinə yaxın siyasətçi hesab olunur. Hazırda Şərqi Avropada Rusiya və NATO-ABŞ arasında rəqabət getdiyi bir zamanda əcəba rusların Çexiyada prezident seçkilərinə müdaxiləsi mümkündürmü? Məsələ ondadır ki. son illərdə bir qayda olaraq ABŞ da daxil olmaqla bir çox ölkələrdə seçkilər Rusiya-Qərb toqquşma cəbhəsinə çevrilib. Rusiya müxtəlif vasitələrlə ABŞ, Fransa kimi demokratik seçki təcrübəsinə sahib ölkələrin seçki sistemlərinə müdaxilə edib. Çexiya isə Şərqi Avropada, Rusiya və Qərbin qarşı-qarşıya dayandığı bölgədə yerləşir. Bu səbəbdən də Çexiyada seçkilərə rusların maraq göstərməsi, müdaxilə etməsi ehtimalları kənara qoyulacaq bir versiya sayıla bilməz.

Siyasi şərhçi Şahin Cəfərli deyir ki, Çexiyada parlament sistemi olduğu üçün prezidentin kimliyi elə də önəm daşımır. Bu səbəbdən də rusların Çexiya seçkilərinə ciddi önəm verəcəyini düşünmür. Ancaq Zeman Putinlə həm də dostdur: "Rusiya inanmıram ki, Çexiyadakı prezident seçkisinə ciddi önəm versin. Çünki onlar da bilirlər ki, orada prezidentin dövlət siyasətinin müəyyən olunmasında rolu məhduddur. Amma şübhəsiz ki, Moskva Zemanın yenidən seçilməsində maraqlıdır".

Ş.Cəfərlinin sözlərinə görə, Miloş Zeman Rusiya prezidenti Putinlə dostluq münasibətləri olan qeyri-standart siyasətçidir: "Bu mənada onu İtaliyanın sabiq baş naziri Silvio Berluskoniyə bənzətmək olar. Onların hər ikisi içkini, əyləncəni sevən, siyasi korrektlikdən zəhləsi gedən siyasətçi tipidir. Zeman rus dilini yaxşı bilir və öz dövlətinin siyasətinə təsiri olmasa da, Moskvanın xoşuna gələn bəyanatlar səsləndirir. Məsələn, o, Avropa Birliyi tərəfindən Rusiyaya qarşı tətbiq olunan sanksiyaların əleyhinə olduğunu bildirib, Ukraynanı Krımın itirilməsi ilə barışaraq əvəzində Rusiyadan kompensasiya almağa çağırıb. Zeman AB-nin miqrantlarla bağlı siyasətini də tənqid edir, baxmayaraq ki, Çexiya Orta Şərqdən və Afrikadan miqrant qəbul etməyib. Lakin bu tip radikal çağırışları ilə o, sağçı seçicilərin, eləcə də ölkəyə mümkün miqrant axınından qorxan insanların simpatiyasını qazanır".

Ancaq əks iddialar da var. Həmsöhbətimiz deyir ki, Zeman bəziləri tərəfindən Avropa Birliyi ideyasını dəstəkləməyən avroskeptik kimi qiymətləndirilsə də, tam tərsini iddia edənlər də var: "Lakin onun bəyanatlarını və çağırışlarını ciddiyə almağın doğru olmadığını söyləyənlər də var. Məsələn, 2013-cü ildəki seçkilərdən sonra Zeman prezident iqamətgahı üzərindən Avropa Birliyinin bayrağını asmışdı, halbuki sələfi Vatslav Klaus bunu etməmişdi. Seçkilərdə 9 namizəd yarışacaq, lakin rəy sorğularına əsasən mübarizə Miloş Zeman və İrji Draqoş arasında gedəcək. Zeman sorğularda öndə olsa da, onun 50%-dən çox səs ala bilməyəcəyi və seçkilərin 2-ci tura qalacağı barədə proqnozlar var. İrji Draqoş Çexiya Elmlər Akademiyasının sabiq prezidentidir və avrooptimist kimi qiymətləndirilir. Draqoş liberal-demokratdır və Çexiyanın Avropa Birliyinin siyasətində daha fəal olmasının tərəfdarıdır. O, Rusiyaya qarşı sanksiyaların tətbiqini ədalətli sayır və Zemanın ölkəni şərqə - Rusiya və Çinə tərəf çəkmək istəməsini sərt tənqid edir. Əgər 2-ci tur olarsa, Draqoşun seçilmə şansı olduğu bildirilir, çünki bu halda digər namizədlərin tərəfdarlarının və qərarsız seçicilərin böyük qismi onu dəstəkləyə bilər".

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Avropa Məhkəməsinin qərarlarından imtina layihəsi ilə bağlı müəmma

**İki ildir müzakirəsi təxirə düşən dövlətlərarası orqanın qərarının Azərbaycan tərəfindən icrasının mümkün olub-olmamasına qərar vermə ilə bağlı hüququ nəzərdə tutan qanun layihəsi bu ilin yaz sessiyasında Milli Məclisdə (MM) müzakirəyə çıxarılacaq.**

APA-nın məlumatına görə, “İnsan hüquq və azadlıqlarının müdafiəsi üzrə dövlətlərarası orqanın qərarının Azərbaycan Respublikası tərəfindən icrasının mümkünlüyü məsələsinin həlli haqqında” Konstitusiya qanunu layihəsi MM-in 2018-ci il yaz sessiyasında işlər planına daxil edilir. Məlumatda deyilir ki, layihədə Azərbaycanın insan hüquq və azadlıqlarının müdafiəsi üzrə üzv olduğu dövlətlərarası orqanların qərarlarını icra etməsinin mümkün olub-olmamasına baxılması məsələsi əksini tapıb.

Azərbaycan insan hüquq və azadlıqlarının müdafiəsi üzrə BMT, ATƏT, Avropa Şurası, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi və digər beynəlxalq qurumların üzvüdür.

Sözügedən xəbərdə xatırladılıb ki, qanun layihəsi ilk dəfə 17 mart 2016-cı ildə MM-in Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında müzakirəyə çıxarılaraq bəyənilsə də, qərar olaraq bildirilib ki, qanunvericilik prinsiplərinə əsasən qanun layihəsi 63 deputatın razılığı olandan sonra MM-in plenar iclasına tövsiyə edilə bilər. Qanun layihəsinin müzakirəsi o vaxtdan təxirə düşüb.



**Fazil Mustafa:** “Bununla bağlı qərarın qəbul olunacağına inanmıram”



**Novella Cəfəroğlu:** “Bundan imtina edilə bilməz, çünki 2018-ci ildə Azərbaycan Avropa İttifaqı ilə saziş imzalayacaq”

Məsələ ilə bağlı Milli Məclisdən hər hansı məlumat ala bilmədik.

**Deputat Fazil Mustafa** isə “Yeni Müsavat”a bildirdi ki, bildirdi ki, Milli Məclis tətildə olduğu üçün bununla bağlı məlumatı yoxdur: “Bir vaxtlar belə bir söhbət var idi, ancaq açığı, Milli Məclisə belə bir layihənin təqdim olunduğunu eşitməmişəm. Milli Məclis yanvarın 15-dək rəsmi tətildədir”.

*Azərbaycanın Avropa Məhkəməsinin qərarlarını icra etməkdən imtinası mümkündürmü?*

F.Mustafa “müasir dövrdə hər şey ola bilər, ona görə konkret bir söz deyə bilmirəm” desə də, bununla bağlı qərarın qəbuluna inanmadığını əlavə etdi. Deputat fikirlərini bununla əsaslandırdı ki, Avropa İnsan Haqları Məhkəməsinin qərarlarının icrası Avropa Şurasının öhdəliklərindən biridir. Azərbaycan da bu qurumun üzvü olaraq öhdəliklərə əməl etməyə borcludur.

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu** isə qəzetimizə açıqlamasında bildirdi ki, Milli Məclisin belə bir qərar qəbul edəcəyinə inanmır: “Elə bir qərar ola bilməz. Çünki 2018-ci ildə Azərbaycan Avropa İttifaqı ilə saziş imzalayacaq. O halda Avropa Məhkəməsinin qərarlarını icradan imtina edilə bilməz. Əks təqdirdə Azərbaycan üçün təhlükəli vəziyyət yarana bilər”. Novella xanım məsələyə hüquq müdafiəçilərinin də həssas yanaşacağını söylədi: “Biz də öz sözümüzü deyəcəyik”.

❑ **Cavid TURAN**

# Publik hüquqi şəxs təcrübəsi - yeni model Azərbaycana nə verəcək...

## Tarixi 200 il bundan əvvələ gedib çıxan sistemin faydaları; **Ekspert:** “Hər bir qurum bilməlidir ki...”

**Azərbaycanda yaradılan publik hüquqi şəxslərin sayı getdikcə artır. Dövlət İmtahan Mərkəzi, Maliyyə Bazarlarına Nəzarət Palatası, Müəllif Hüquqları Agentliyi, Prezident yanında Mənzil İnşaatı Dövlət Agentliyi, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC), “Azəravtoyol” ASC, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi", “Dənizkənarı Bulvar İdarəsi”, Bakı Nəqliyyat Agentliyi, “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tərcümə Mərkəzi, Bakı Sağlamlıq Mərkəzi, Dövlət Feldyeger Xidməti, ”ABAD", Azərbaycan Standartlaşdırma İnstitutu, Azərbaycan Metrologiya İnstitutu, Azərbaycan Akkreditasiya Mərkəzi, “Patent və Əmtəə Nişanları Mərkəzi , Dövlət Reklam Agentliyi, təhsil ocaqlarından Bakı Mühəndislik Universiteti, Bakı Dövlət Universiteti ilə Azərbaycan Dövlət İqtisad Universiteti publik hüquqi şəxslərə çevrilib. Bir neçə gün öncə Energetika Nazirliyinin Dövlət Enerji Nəzarəti İdarəsi və Dövlət Qaz Nəzarəti İdarəsi Enerji Məsələlərini Tənzimləmə Agentliyi publik hüquqi şəxsinə çevrildi. Yaxın müddətdə bir çox dövlət xəstəxanalarının da publik hüquqi şəxsə çevrilməsi gözlənilir.**



Rəşad Həsənov

Qeyd edək ki, publik hüquqi şəxs anlayışının tarixi 200 il bundan əvvələ gedib çıxır. XIX əsrin axırlarından etibarən bir çox Avropa ölkələrində bu mexanizm tətbiq olunmağa başlayıb. Baltik ölkələrində, Gürcüstanda, Ukrayna və Moldova da bu təcrübədən istifadə edilir.

Azərbaycanda publik hüquqi şəxslərin fəaliyyəti 2015-ci ildə qəbul olunmuş “Publik hüquqi şəxslər haqqında” qanunla tənzimlənir. Həmin qanuna görə, publik hüquq - ümumdövlət və ya ictimai maraqların təmin edilməsi ilə bağlı olan münasibətləri tənzimləyən hüquq normalarının məcmusudur. Publik hüquqi şəxs isə dövlət və bələdiyyə adından və ya publik hüquqi şəxs tərəfindən yaradılan, ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan, dövlət və ya bələdiyyə orqanı olmayan təşkilatdır.

*Publik hüquqi şəxslərin yaradılması hansı zərurətdən irəli gəlir? Azərbaycanda dünyanın tətbiq etdiyi bu mütərəqqi idarəetmə formasından nə qədər səmərəli istifadə olunur?* **İqtisadçı-ekspert Rəşad Həsənov** deyir ki, publik hüquqi şəxslərin yaradılmasında əsas məqsəd dövlət idarəetmə strukturunun optimallaşdırılması və ödənişli əsaslara hüquqi bazanın formalaşdırılmasıdır: “Eyni zamanda publik hüquqi şəxslərin əhaliyə təqim etdiyi xidmətlərin ödənişli əsaslarla həyata keçirilməsinə şəraitin yaradılması, dövlət büdcəsinin bu qurumların saxlanmasına sərf etdiyi vəsaitlərin azaldılmasıdır. Publik hüquqi şəxsə çevrilən müəssisələr əhaliyə təqdim etdikləri ödənişli xidmətlərin siyahısını artırırlar. Publik hüquqi şəxslərin bir üstünlüyü ondadır ki, onlar bu sahədə birbaşa qərar qəbul etmək səlahiyyətinə malikdir, eyni zamanda xidmət çeşidlərinin artırılması, xidmətlərin təkmilləşdirilməsi, əlavə təşəbbüskarlıq imkanlarının yaradılması kimi hüquqları var. Beynəlxalq praktika göstərir ki, bütün bunlar son nəticədə publik hüquqi şəxslərin öz maliyyə dayanıqlığını təmin etmək üçün daha innovativ təkliflərlə, xidmətlərlə çıxış etmələrinə gətirib çıxarır”.

**Ekspertin sözlərinə görə, Azərbaycanda da bu institutların yaradılmasında məqsəd eynidir:** “Amma hələlik bəzi publik hüquqi şəxslərin bu imkanlardan tam yararlana bilməməsi, menecment qabiliyyətinin zəif inkişaf etməsi, ənənəvi dövlət qurumu yanaşmasının idarəetmənin ruhundan tam kənarlaşdırılmaması nəticəsində bu qurumların saxlanması yükünün əhəmiyyətli hissəsi hələ də dövlətin üzərində qalır. 2018-ci il dövlət büdcəsindən bununla bağlı əhəmiyyətli həcmdə vəsait ayrılıb. Bu isə o deməkdir ki, publik hüquqi şəxsə çevrilən bəzi qurumlar hələ də bazar prinsipləri əsasında xidmətlər tətbiq etməyə tam hazır deyillər. Təbii ki, burada sosial yanaşmalar, bəzi hallarda qarşılıqlı razılaşma əsasında xidmətlərin maya dəyərindən aşağı qiymətlərlə tətbiq edilməsi halları da var. Və bu kimi hallar bəzi publik hüquqi şəxslərin gəlirlərinə mənfi təsir göstərir. Həmin qurumların büdcə və dövlət qarşısında sosial öhdəlikləri var ki, bu da onların marketinq və ya kommersiya təşkilatı kimi idarə edilməsini məhdudlaşdırır. Lakin bununla yanaşı, qeyri-peşəkarlıq, ənənəvi idarəetmə metodlarından uzaqlaşa bilməmək kimi amillər də var və onlar bu təcrübənin tətbiqində qarşıya qoyulan məqsədlərə çatılmasına hələ ki imkan vermir”.

**Ekspert deyir ki, bu sahədə beynəlxalq təcrübənin mənimsənilməsi, tətbiqi baxımından Azərbaycan beynəlxalq trenddən geri qalır:** “Düzdür, bir sıra qurumlar publik hüquqi şəxs kimi qısa müddətdir ki, fəaliyyət göstərir, hələ formalaşması tam başa çatmayıb. Lakin düşünürəm ki, digər beynəlxalq praktikada uğur qazanmış üsulları necə tətbiq ediriksə, publik hüquqi şəxslərlə bağlı da eyni tətbiqi görəcəyik. Bu sahədə effektiv nəticələr əldə etmək üçün publik hüquqi şəxs statusu alan qurumlara özlərini saxlamaq imkanları əldə etmələri üçün müddətlər təyin olunmalıdır. Hər bir qurum bilməlidir ki, bir müddətdən sonra özü-özünü təmin etməlidir. Bu halda belə qurumlarda innovativ idarəetmə, çeşidli xidmətlərin tətbiqi, müasir menecment formalaşacaq, onların rəhbərliyi fərdi maraqlarını deyil, qurum maraqlarını önə çəkəcəklər və son nəticədə daha çox gəlir əldə edərək maliyyə müstəqilliklərini təmin etmiş olacaqlar. Yox, əgər bu qurumların saxlanması üçün büdcədən rahatlıqla pul ayrılmağa davam edəcəksə, onda yüksək effektin əldə olunması gözlənilən deyil”.

❑ **DÜNYA**
❑ **“Yeni Müsavat”**




# Ermənistan özünə qəsd yolunda - Azərbaycanla anlaşma olmasa...

## Qarabağ konflikti işğalçı ölkəyə bu il daha böyük fəsadlar vəd edir; **tanınmış rusiyalı telejurnalist:** "Ermənistanın tək çıxış yolu işğal etdiyi Azərbaycan ərazilərindən çıxmaqdır"

**"Yeni Müsavat" xəbər verir ki, bu barədə "Vestnik Kavkaz" portalına açıqlamasında tanınmış rusiyalı telejurnalist və politoloq, Rusiya prezidenti yanında Vətəndaş Cəmiyyəti İnkişafı Şurasının və "İzbor" klubunun Maksim Şevçenko deyib.** Politoloq daha sonra ermənilərin vaxtilə Bakıda, Sumqayıtda, digər Azərbaycan şəhərlərində yüz illərlə zəngin və varlı yaşadıqlarını yada salaraq deyib: "Ermənilər keçmiş İran imperiyasının tərkibində çox mühüm ticarət funksiyasını yerinə yetirirdilər, orada bütün hüquqlara malik idilər. Min ildə ilk dəfə olaraq ermənilər bu xəzəryanı ərazini Qarabağ münaqişəsinin gedişində itirdilər. Dəqiqdir ki, onlar üçün bu, əsla yaxşı sonuc olmayıb".

*Bəs Ermənistan hakimiyyəti Dağlıq Qarabağ konflikti nizamlanmadan ölkədə sosial-iqtisadi situasiyanı düzəldə bilərmi?*

Rusiyalı telejurnalist belə variantları istisna edir: "Belə variantlar yoxdur. Azərbaycanla davam edən müharibə və sərhədlərin blokadası şəraitində bu cür perspektiv mümkün deyil. Çıxış yolu yalnız birdir - erməni silahlı qüvvələrin işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılması, Azərbaycanla normal iqtisadi əlaqələrin bərpa edilməsi, qarşılıqlı şəkildə qaçqınların qayıtması və birbaşa Dağlıq Qarabağın statusunun müzakirəsi. Qaçqınların qayıdışından, Türkiyə-Ermənistan sərhədinin açılmasından və normal, qədim ticari əlaqələrin bərpasından sonra - hansı əlaqələr ki, həmişə Qafqazdan keçib, - o zaman Ermənistan öz daxili vəziyyətini qaydaya sala bilər".

Politoloq mövcud durumda Azərbaycan-Rusiya əlaqələrini də xarakterizə edib. "Azərbaycan Rusiyanın etibarlı və yaxşı tərəfdaşıdır. O, bizə yad ölkə deyil. Azərbaycanla bizim Dağıstanda böyük sərhədimiz var. Bu sərhəd vasitəsilə böyük ikitərəfli ticarət və İranla tranzit həyata keçirilir. Biz Ermənistanın iştirak eləmədiyi Xəzəryanı əməkdaşlığı inkişaf etdiririk. Azərbaycan isə burada həlledici və böyük rola malikdir. Və Ermənistan nə qədər inad edirsə, bir o qədər o, Rusiya üçün geosiyasi əhəmiyyətini itirir. Rusiya Gürcüstan və Azərbaycanla anlaşsa, o zaman görəsən Ermənistan nə edəcək?", - deyə o ritorik sual edib.

*****

Bu xüsusda həlli uzanan Qarabağ konflikti blokada şəraitində olan və dünya okeanına çıxışı olmayan işğalçı ölkə üçün 2018-ci ildə daha böyük fəsadlar deməkdir. İrəvan isə rasional həll yolu tutmaqdansa, əfsuslar olsun ki, siyasi özünə qəsd (suisid) yolunu davam etdirir. Bu da öz növbəsində Ermənistana daha ağır iqtisadi durumla yanaşı, erməni ailələrinə yeni əsgər tabutları vəd edir.

Doğrudur, Rusiyanın Ermənistana təsir imkanları ciddidir. Ancaq heç bir qüvvə İrəvanın Azərbaycan ərazilərini qeyd-şərtsiz boşaltmağa və Bakı ilə birbaşa dil tapmağa başlamasına əngəl ola bilməz. Artıq vurğulandığı kimi, tək çıxış yolu işğaldakı ərazilərin azad edilməsidir. Bu, baş verməyincə Azərbaycan ərazisindəki işğalçı qüvvələr daim özlərini səksəkə və vahimə içində hiss edəcək.

"Azərbaycanın işğal olunan ərazilərində xidmət edən Ermənistan ordusunun əsgərləri ciddi psixoloji gərginlik içərisindədirlər. Çünki onlar bilirlər ki, işğal olunmuş ərazilərimizdə xidmət edirlər". "Yeni Müsavat"ın məlumatına görə, bunu AzərTAc-a açıqlamasında hərbi ekspert, ehtiyatda olan polkovnik Şair Ramaldanov deyib.

Polkovnik bildirib ki, bu gün ciddi sosial problemlərin yaşandığı Ermənistanda kütləvi iğtişaşların ardı-arası kəsilmir. "Ermənistan cəmiyyətini, ailələrini, analarını narahat edən məsələ övladlarının məcburi surətdə Dağlıq Qarabağa göndərilməsidir. Onlar övladlarının Qarabağa göndərilməsini istəmirlər. Ermənistan cəmiyyəti ölkə rəhbərliyindən tələb edir ki, bizim gənclər Qarabağda yox, Ermənistanda xidmət etsinlər, öz torpaqlarını qorusunlar. Qonşu dövlətin işğal olunmuş ərazisində xidmət etməsinlər", - deyə o qeyd edib.

"Ermənistan ictimaiyyətinin narahatlığı, narazılığı orduda, təmas xəttindəki bölmələrdə də əks-sədasını tapır. Ermənistan ordusundakı qanunsuzluqlar, özbaşınalıqlar hərbçilər arasında itkilərə səbəb olur. Bu itkilər əksər hallarda təmas xəttində deyil, qeyri-döyüş şəraitində baş verir. Nizamnamədən kənar münasibətlər səbəbindən düşmən ordusunda ölüm halları, intiharlar daim artır. Bunlar hamısı onu göstərir ki, Azərbaycan Ordusu mənəvi-psixoloji cəhətdən də düşməndən qat-qat güclüdür. Azərbaycan Silahlı Qüvvələrinin əsgərlərinin mənəvi-psixoloji durumu çox güclü və yüksəkdir" - polkovnik Şair Ramaldanov vurğulayıb.

*****

**Döyüş təcrübəsi isə göstərir ki, müharibə zamanı əsgərin psixoloji durumu qələbə üçün həlledici önəm kəsb edən faktorlardandır.**

---

**Rusiyalı tanınmış politoloq, prezidentin Putinə yaxın şəxslərdən sayılan Sergey Markov Dağlıq Qarabağ problemi ilə bağlı pessimist proqnoz verib. Xəbər verildiyi kimi, politoloq bildirib ki, bu il Rusiya Dağlıq Qarabağ probleminin hayında olmayacaq və başı daha çox Qərbdən gələn hücumları dəf eləməyə qarışacaq.**


Maksim Şevçenko

Markov həmçinin bildirib ki, 2018-da Qarabağ danışıqları 2017-ci ilin formatından fərqlənməyəcək. Yəni belə çıxır ki, onsuz da konfliktin həllinə xüsusi maraq göstərməyən Rusiya üçün problem 2018-ci ildə bir az da arxa plana keçəcək.

Belə vəziyyətdə Azərbaycanın məqbul şərtlər yetişənə kimi öz hərbi qüdrətini artırmaqdan savayı yolu qalmır. Bu xüsusda Azərbaycan prezidenti İlham Əliyevin ilin yekunlarına dair toplantıda söylədiyi "Azərbaycan yeni silahlar almaqda davam edəcək" sözləri diqqət çəkməklə yanaşı, konfliktin həllini uzadan işğalçı Ermənistana və onun havadarlarına özünəməxsus mesajdır.

*****

Həlli uzanan Dağlıq Qarabağ ixtilafı ilə bağlı digər rusiyalı politoloqun da fikirləri var.

"İrəvan Dağlıq Qarabağ konflikti hesabına öz qərbli sponsorlarından və diasporadan pullar qopardaraq özünə siyasi və iqtisadi dəstək təmin edə bilər - sanki Dağlıq Qarabağı erməni işində forpost kimi gözə soxaraq. Ancaq bu zaman Azərbaycan-erməni əlaqələrinin qırılması, enerji resurslarının Ermənistan ərazisindən nəqlinin dayanması və Xəzəryanı zonadan ermənilərin yox olması - erməni xalqının faciəsidir".



# ABŞ İtaliyanı Minsk Qrupunu dəstəkləməyə çağırdı

**ABŞ ATƏT-in İtaliya sədrliyini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə birdəfəlik həlli üçün Minsk Qrupunu dəstəkləməyə çağırıb (Trend). Bunu ATƏT-in Daimi Şurasının Vyanada keçirilən xüsusi iclasında ABŞ-ın ATƏT-dəki daimi nümayəndəliyi təşkilata sədrlik edən İtaliyanın xarici işlər naziri Angelino Alfanonun çıxışına cavab olaraq səsləndirdiyi bəyanatında bildirib.**

Bəyanatda qeyd olunur: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar, biz sizdən münaqişənin sülh yolu ilə həllinə dair Minsk Qrupunun səylərini artırmaq üçün öz nümayəndənizə və onun missiyasına hərtərəfli və qətiyyətli dəstək verməyinizi xahiş edirik. Ermənistan və Azərbaycan prezidentlərinin 2017-ci il Cenevrədəki zirvə görüşünün ümidverici olduğunu nəzərə alınmalıdır".

YENİ MÜSAVAT
N 8 (6897) 13 yanvar 2018

**Azərbaycanda sahibkarların ən sıx işlədiyi qurumlardan biri Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətidir. Ölkəyə mal gətirən, malı aparan, məhsul istehsal edən sahibkarların çox böyük əksəriyyəti Xidmət və onun yerli strukturları ilə işləməli olur. Bəlkə də elə buna görədir ki, Fitosanitar Nəzarəti Xidməti ilə bağlı müzakirələr, bəzənsə haqlı-haqsız şikayətlər, narazılıqlar yaranır.**

Onu da qeyd edək ki, son illərdə sahibkarların birbaşa işlədiyi dövlət qurumlarının bizneslə münasibətlərində ciddi dəyişikliklər baş verib.




# Fitosanitar Xidmət ittihamlara cavab verdi

## İdxal edilən tonlarla kartof yandırılıb; "Zəruri sənədləşmə işlərinin yubadılması barədə deyilənlər əsassızdır"

Xüsusilə sahibkarlıq subyektlərinin yoxlamalarının ölkə rəhbərliyinin təşəbbüsü ilə dayandırılmasından sonra qarşılıqlı münasibətlərdə müsbət dönüş yaranıb. Buna görə də redkasiyamıza üz tutan bir neçə sahibkarın Dövlət Fitosanitar Nəzarəti Xidmətindən narazılıq etməsi, xidmətin yerli strukturlarının onlara zəruri sənədləri yubatmaqla verdiklərini demələri marağımıza səbəb oldu. Onların narazılıq etdikləri məqamlarla bağlı xidmətin özünə müraciət edərək, idxal-ixrac, istehsal prosesində mal və məhsullar üçün zəruri sənədləşmələrin verilmə müddəti, bu sahədə qanunvericiliyin tələbləri və real vəziyyətlə bağlı məlumatlar istədik.

**Xidmətin mətbuat katibliyindən sorğumuza verilən cavabda qeyd olunur ki, "Fitosanitar nəzarəti haqqında" Qanunun 10.0.3-cü bəndinə əsasən bitki və bitkiçilik məhsullarının idxalı və ixracına, təkrar ixracına, Azərbaycan Respublikasının ərazisində daşınmasına və dövriyyəsinə idxal karantin icazəsi, təkrar ixracat fitosanitar sertifikatı və fitosanitar sertifikatları vermək Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin hüquqlarına aid edilib:** "Bu Qaydalar əsasında bitki və bitkiçilik məhsullarının idxalına idxal karantin icazəsinin verilməsi ilə bağlı müraciətə qeydə alındığı gündən başlayaraq 15 gün, bitki və bitkiçilik məhsullarının ixracı üçün fitosanitar sertifikatın verilməsi ilə bağlı müraciətə isə 3 gün müddətində baxılmalıdır.

Qaydalara uyğun olaraq, hüquqi və fiziki şəxslər bitki və bitkiçilik məhsullarına idxal karantin icazəsinin alınması üçün Dövlət Xidmətinə rəsmi ərizə ilə müaciət etməlidirlər. Ərizə ilə birlikdə tələb olunan bütün sənədləri, eləcə də məhsulun yekun təyinatı və istifadə yeri, əkin və səpin üçün gətirilməsi nəzərdə tutulan toxumun sortluq və səpin keyfiyyətini təsdiq edən uyğunluq sertifikatı sənədlərini də təqdim etməlidir.

Qeyd edək ki, bitki və bitkiçilik məhsulları ixrac edən ərizəçi yük partiyasını yola salmamışdan ən azı 5 gün əvvəl Dövlət Xidmətinin yerli qurumlarına qanunvericiliklə nəzərdə tutulmuş sənədlərlə müraciət etməlidir. Tələb olunan sənədlər təqdim edildikdən sonra Dövlət Xidmətinin müfəttişləri tərəfindən ixrac olunacaq məhsullara ilk yüklənmə məntəqələrində fitosanitar karantin baxışı keçirilir və nümunələr götürülür. Zəruri hallarda bəzi məhsullar üzərində baxış yerindəcə fumiqasiya tədbirləri görülür. Götürülən nümunələr Dövlət Xidmətinin müvafiq laboratoriyalarına təqdim olunur və məhsul üzərində laborator analizlər aparılır. Analizlərin nəticəsi müsbət olduğu təqdirdə, sahibkara Dövlət Xidmətinin müvafiq qurumu tərəfindən xidmət haqqını və dövlət rüsumunu bank vasitəsi ilə ödəmək üçün hesab fakturası təqdim edilir. Vətəndaşlar bank vasitəsi ilə ödənişlərini həyata keçirdikdən sonra bank tərəfindən verilmiş "Ödəniş tapşırığı"nı Dövlət Xidmətinin müvafiq qurumuna təqdim edirlər. Bundan sonra ölkəyə daxil olacaq bitki və bitki məhsullarının idxalı üçün idxal-karantin icazəsi, ixracı üçün isə fitosanitar sertifikat verilir".

Xidmətən verilən məlumata görə, ixrac prosesini daha da sürətləndirmək üçün Dövlət Xidməti tərəfindən fitosanitar sertifikat 24 saat ərzində fiziki və hüquqi şəxslərə təqdim edilir: "Bəzi hallarda vətəndaşlar ixrac edilən bitki və bitkiçilik məhsullarına fitosanitar karantin baxışı keçirilmədən fitosanitar sertifikatın verilməsini tələb edirlər ki, bu da mövcud qanunvericiliyin tələblərinə ziddir". Xidmət tərəfindən verilən sertifikat və ya digər sənədlərin qanunvericilikdə nəzərdə tutulan ilkin müddətdən gec verilməsi hansı hallarda baş verir? Cavabdan aydın olur ki, fitosanitar baxış zamanı yükün üzərində və ya daşındığı nəqliyyat vasitələrində karantin tətbiq edilən zərərli orqanizmlər aşkar olunduqda yük sahibinin iştirakı ilə yük qanunvericiliklə müəyyən olunmuş qaydada zərərsizləşdirilir: "Əgər yük sahibinin razılığı olmasa, dövlət fitosanitar müfəttişləri tərəfindən müəyyən olunmuş qaydada akt tərtib olunur, yük geri qaytarılır və Dövlət Xidmətinə, eyni zamanda ixracatçıya (daşıyıcıya və ya digər səlahiyyətli şəxsə) bu barədə dərhal məlumat verilir. Eyni zamanda qanunvericiliklə nəzərdə tutulan sənədlər təqdim edilmədikdə, ərizəçinin təqdim etdiyi düzgün olmayan və ya təhrif olunmuş məlumatlar olduqda, fitosanitar karantin baxışı zamanı karantin tətbiq edilən zərərli orqanizmlər aşkar edildikdə və digər hallarda icazə sənədlərinin verilməsindən imtina olunur. Çatışmazlıqlar aradan qaldırıldıqdan və və aşkar olunmuş karantin tətbiq edilən zərərli orqanizmlər zərərsizləşdirildikdən sonra həmin yükə müvafiq icazə sənədləri verilir".

**Xidmətdən bildirildiyinə görə, 2017-ci ildə ölkədə fitosanitar sabitliyə nəzarəti gücləndirmək məqsədi ilə kənd təsərrüfatı məhsullarının əkin sahələrində, satış yarmarkalarında, bazarlarda, topdansatış bazalarında bitki və bitkiçilik məhsullarının keyfiyyət göstəricilərinə ciddi nəzarət olunub.** Karantin tətbiq edilən zərərli orqanizmlər və tərkibində insan həyatına və sağlamlığına təhlükə törədən zəhərli kimyəvi maddələr aşkar edilmiş 297 758 kq məhsul dövriyyədən çıxarılaraq məhv edilib.

Respublika Karantin Ekspertiza Mərkəzi tərəfindən 2017-ci ildə karantin tətbiq edilən zərərli orqanizm aşkar edilmiş kivi məhsulunun sirayətlənmiş 127 kq çıxar hissəsi, kartof məhsulunun (24,8 ton) sirayətlənmiş 3,9 ton çıxar hissəsi, 29,4 ton ərzaqlıq və 8 ton toxumluq kartof məhsulu yandırılma üsulu ilə məhv edilib. Həmçinin, 49 ton kartof məhsulu ixracatçı ölkəyə geri qaytarılıb, zərərli orqanizm aşkar edilmiş 401,82 ton kartofun toxum kimi istifadəsi qadağan olunub, bəzək (dekorativ) ağaclar (tut bitkiləri) kimyəvi preparatlarla işlənib və nəzarətə götürülüb.

**2017-ci ildə həmçinin 18 ədəd pittosporium bitkisi yandırılaraq məhv edilib, 2364 ton ərzaqlıq qarğıdalı xüsusi aqreqatlar vasitəsi ilə təmizlənib və 9960 kq yovşanyarpaqlı ambroziya toxumları olan çıxar yandırılıb, 3673 ton ərzaqlıq buğda məhsulu xüsusi aqreqatlar vasitəsi ilə təmizlənib və çıxan 36630 kq buğda çıxarı yandırılıb.** Bundan əlavə, Rusiya Federasiyasından idxal olunmuş 40 ton (30 və 10 ton olmaqla iki partiya) və 16 ton yonca toxumu tərkibində karantin tətbiq edilən alaq toxumu sarı sarmaşıq və yovşanyarpaqlı ambroziya toxumları aşkar edildiyi üçün məhsul xüsusi aqreqatlar vasitəsilə təmizlənib, çıxan çıxar (ümumilikdə 1060 kq) yandırılıb. Şabran rayonu ərazisində Aqro Az MMC-yə məxsus üzüm bağının karantin tətbiq edilən zərərverici filloksera aşkar edilmiş 3 ha hissəsində bitkilərin yoluxmuş hissələri kəsilərək sahədən kənarlaşdırılıb və məhv edilib.

❑ Dünya SAKİT,
❑ "Yeni Müsavat"

# İranlılar yenidən Azərbaycanda mənzil almağa başlayıb

## Ekspert: "Belə faktlar devalvasiyalara qədər də vardı"



**İran vətəndaşlarının, xüsusilə də Güney Azərbaycandan olan soydaşlarımızın Azərbaycanın mənzil bazarına marağı artıb. Bununla bağlı redaksiyamıza məlumat verən mənbənin sözlərinə görə, son aylarda güneyli soydaşlarımız tərəfindən Bakı, Sumqayıt, hətta Gəncə şəhərlərində mənzil alınması prosesi sürətlənib. Getdikcə daha çox sayda iranlının bu prosesə qatıldığı qeyd olunur.**

Qeyd edək ki, Güney Azərbaycandan olan soydaşlarımızın Bakının mənzil bazarına axışması prosesi 2006-2007-ci illərdə də baş vermişdi. Həmin vaxt bu axın mənzil bazarında böyük canlanmaya səbəb olmuşdu. Proses haradasa 2009-cu ilədək davam etdi, daha sonra xeyli səngidi. İndi isə yenidən genylilərin Azərbaycanın mənzil bazarına axınının başladığı deyilir. Məlumata görə, son illərdə İranda sosial-iqtisadi vəziyyətin ağırlaşması, inflyasiyanın sürətlənməsi fonunda dövlət tərəfindən verilən bir sıra güzəştlərin ləğv olunması, nəhayət, baş verən son iğtişaşlar vətəndaşlarda gələcəklə bağlı inamsızlığın yaranmasına səbəb olub. İnsanlar əllərində olan pulları Azərbaycanın sabit gəlir gətirən mənzil bazarına yatırmağa çalışırlar. Bakı şəhərində aparılan söküntü, həyata keçirilən böyük tikinti layihələri nəticəsində kirayə bazarında qiymətlərin xeyli yüksəlməsinə gətirib çıxarıb. Xüsusilə metrostansiyalara yaxın olan ərazilərdə kirayə qiymətlərində 20-30 faizədək artım müşahidə olunmaqdadır.

**"Əmlak Bazarı İştirakçıları" İctimai Birliyinin icraçı direktoru Ramil Osmanlı**nın dediyinə görə, xarici ölkə vətəndaşlarının Azərbaycanda mənzil almasına hüquqi məhdudiyyət yoxdur: "Xarici vətəndaşlar Azərbaycanda yalnız torpaq əldə edə bilməzlər, mənzillə bağlı hər hansı qadağa yoxdur. Bu baxımdan, istər İran vətəndaşlarının, istər Gürcüstan vətəndaşlarının Azərbaycanda mənzil alması mümkündür".

**İcraçı direktor bildirir ki, böhran başlanıb, devalvasiyalar olanadək İran vətəndaşlarının Azərbaycanda çoxsaylı mənzil alması faktları olub:** "Devalvasiyalardan sonra belə hallar minimuma düşdü. İndi yayılan məlumatın mənbəyi mənə məlum olmadığı üçün dəqiq nəsə deyə bilmirəm. Onu qeyd edə bilərəm ki, Rusiyada baş verən sosial-iqtisadi hadisələr Azərbaycanın daşınmaz əmlak bazarına dərhal təsir göstərir. Lakin İran, Gürcüstan kimi qonşu ölkələrdən Azərbaycandan pul axınları elə də güclü olmadığı üçün bazara ciddi təsirləri olmur".

❑ DÜNYA

YENİ MÜSAVAT
N 8 (6897) 13 yanvar 2018

# Azərbaycanda iki nazirliyin birləşdirilməsi projesi niyə alınmır?

**Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsinin vahid bir qurumda birləşdirilərək supernazirlik yaradılması məsələsi bir neçə gündür ki, müzakirə olunur. Bu barədə dəqiq rəsmi məlumatlar olmasa da, "Turan" agentliyinin istinad etdiyi mötəbər mənbədən məlumat daxil olub.**

**Natiq Cəfərli:** "Rabitə və Nəqliyyat nazirliklərinin problemləri bir binada birləşdirildi, lakin o problemlərin həlli üçün yeni yanaşma ortaya qoyulmadı"



Bu məlumatlara görə, tezliklə Dövlət Gömrük Xidmətinin və Vergilər Nazirliyinin inteqrasiyası yolu ilə vahid fiskal orqan yaradılacaq. Qeyd edək ki, dünya təcrübəsində də bu cür halların olmasını nəzərə alaraq əksər ekspertlər, iqtisadçılar iki nazirliyin birləşdirilməsini, daha doğrusu, Gömrük Komitəsi ilə Vergilər Nazirliyinin bir departamentə çevrilməsini müsbət dəyərləndirirlər. Lakin bir məsələni də qeyd etməliyik ki, bu təcrübə daha öncə başqa bir nazirliyin timsalında Azərbaycanda yaşandı və heç də müsbət nəticə vermədi.

Belə ki, Nəqliyyat Nazirliyi ləğv edilərək Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə birləşdirildi. Lakin hələ də hər iki qurumun fəaliyyətində qeyri-müəyyənlik davam edir. Nəqliyyat Nazirliyinin səlahiyyətlərinin və fəaliyyətinin Yüksək Texnologiyalar Nazirliyinə inteqrasiyası tam olaraq baş çatmayıb.

Yeni qurumun yaradılması ilə sözügedən sahədə hər hansı müsbət nəticə və ya uğur əldə edilməyib. Əksinə problemlər daha da qabarıq şəkildə qalmaqdadır.

Bəs görəsən, belə olan halda daha iki nazirliyin birləşdirilməsi hansı nəticə verəcək? Hazırki iqtisadi şəraitdə dövlət büdcəsinə gəlirləri təmin edən əsas iki nazirliyin fəaliyyətinin yenidən qurulması prosesi arzuolunan şəkildə həyata keçirilə biləcəkmi? Yoxsa bu iki qurumu da Nəqliyyat Nazirliyinin taleyi gözləyir?

"Yeni Müsavat"ın suallarını cavablandıran **iqtisadçı ekspert Natiq Cəfərli** bildirdi ki, ideya olaraq sözügedən struktur islahatları müsbət olsa da, onun həyata keçirilməsi prosesi daha önəmlidir: "Əslində iki nazirliyin birləşdirilməsi yox, Gömrük Komitəsinin Vergilər Nazirliyi nəzdində bir departament kimi qurulması daha məntiqlidir. Çünki fiskal orqanların bir əldə cəmləşməsi, büdcəyə vəsait toplayan əsas orqan olan Vergilər Nazirliyi tərəfindən həm vergi, həm də gömrük siyasətinin vahid mərkəzdən idarə olunması dünya təcrübəsinə də uyğundur. Belə bir birləşmənin aparılması doğru bir addım olardı. Ancaq bütün şərhlərimizdə də qeyd etmişik ki, bu ilkin addımdır. Təkcə birləşməklə məsələ bitmir, əsas məsələ sonrakı idarəetmə və struktur islahatlarıdır. Vergilər Nazirliyi və Gömrük Komitəsi müstəqilliyin qazanılmasından bu günə qədər iş adamlarının, biznes dünyasının qorxulu röyasına çevrilmiş iki qurumdur. Belə bir nazirlik yaranacaqsa, bu birləşmə həyata keçiriləcəksə, ilkin addım kimi Vergilər və Gömrük Nazirliyi iş adamlarının, biznes dünyasının dostuna çevrilməlidir".

**İqtisadçının sözlərinə görə, iki qurumun birləşdirilməsindən sonra qanunvericilik səviyyəsində ciddi islahatlar olmalıdır:** "Azərbaycanın vergi və gömrük məcəlləsi dünyada ən çox maddələr olan məcəllələrdən biridir. Bir-birinə əks olan, iş adamlarına çətinlik yaradan maddələr çoxdur. Vergi dərəcələri ilə bağlı inkişaf etmiş ölkələrdə aylarla, illərlə diskussiyalar aparılır, hətta seçkilər nəticəsində bu məsələ həll olunur. Qərb ölkələrində seçkilərin nəticəsini məhz vergi siyasəti müəyyənləşdirir. Hansı siyasi partiyanın vergi proqramı daha cəlbedici olursa, insanlar çox zaman onlara səs verirlər. Azərbaycanda isə ötən il bir gecədə Vergilər Məcəlləsində 201 maddə dəyişdirildi. Bunun 150-si yeni müddəalar idi ki, məcəlləyə əlavə olundu. Bu absurd yanaşmadır və iş adamlarını çox qorxudur. İki nazirliyin birləşməsi ilkin addım kimi müsbətdir. Ancaq bundan sonra qanunvericilikdə də dəyişikliklər baş verməyəcəksə, heç bir effektiv idarəetməyə və ölkə iqtisadiyyatında müsbət dəyişikliklərə gətirib çıxara bilməz. Bu addımdan sonra yeni qurumun strukturunun dəyişməsi, idarəetmənin fəlsəfəsinin dəyişməsi, qanunvericilikdə dəyişikliklər edilməsi, Vergilər Məcəlləsinin sadələşdirilməsi və iş adamları üçün anlaşılan hala gətirilməsi, gömrük qanunvericiliyinin dəyişdirilməsi - bütün bunlar olacaqsa, iki qurumun birləşdirilməsi effektiv ola bilər".

**N.Cəfərli vurğuladı ki, Nəqliyyat Nazirliyinin Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin birləşdirilməsinin qeyri-effektiv olması da məhz yuxarıda sadalanan səbəblərdən qaynaqlanır:** "Bu idarəetmənin təkmilləşdirilməsi baxımından normal addım idi. Ancaq ondan sonra nazirliyin içində heç bir struktur dəyişiklikləri olmadı, yanaşma dəyişmədi. Nəqliyyat Nazirliyinə aid olan lisenziyaların verilməsi qaydaları sadələşmədi. Adlar birləşdirildi və yeganə nəticə o oldu ki, problemlər də birləşdi. Rabitə və Nəqliyyat Nazirliklərinin problemləri bir binada birləşdirildi, lakin o problemlərin həlli üçün yeni yanaşma ortaya qoyulmadı. Bu gün də həmin birləşmənin effekt verməməsinin əsas səbəbi struktur və idarəetmə islahatlarının olmamasıdır".

❑ **Nərgiz LİFTİYEVA**



# Bir həftədə metroda 2 intihar hadisəsi: faciələri necə önləyək?

**Nəsimi Paşayev:** "Sərnişinlərin təhlükəsizliyi üçün əlimizdən gələni edirik"



**Son zamanlar ölkədə intihar hadisələrinin sayı yenidən artıb. Xüsusilə də onlar nədənsə artıq ağrılı ölümü seçib, Bakı metrosunun stansiyalarında özlərini qatarın altına atırlar. Son 1 həftə ərzində iki nəfər metroda intihar edərək, dünyasını dəyişib.**

Belə ki, yanvarın 8-də metronun "Ulduz" stansiyasında 1995-ci il təvəllüdlü Gəncə şəhər sakini Mustafazadə Rəşad Əlixan oğlu özünü "H.Aslanov" metrostansiyasından "İçəri Şəhər"ə gedən, 15 saylı marşrut üzrə hərəkət edən qatarın altına atıb. Nəticədə o, dünyasını dəyişib.

Yanvarın 12-də isə "Həzi Aslanov" stansiyasından "Dərnəgülə" hərəkət edən qatar "Qara Qarayev" stansiyasına daxil olan zaman 1971-ci il təvəllüdlü Cəmil Cəlilov özünü qatarın altına atmağa cəhd etsə də bunu bacarmayıb və qatar onu vuraraq platformaya atıb. C.Cəlilov xəstəxanada dünyasını dəyişib.

*Bəs metroda intiharların qarşısını almaq üçün təhlükəsizlik tədbirlərini gücləndirmək olarmı?*

Öncə, xaricdə metro stansiyalarında bu kimi bəd hadisələrin qarşısının alınması üçün görülən tədbirlərə nəzər salaq. Belə ki, bəzi ölkələrdə metroda relslərlə platforma arasında şəffaf şüşədən ibarət sədd var. Bu tipli stansiyalarda sərnişinlərin tunelə yıxılması və ya intihar məqsədilə qatarın altına tullanması mümkün deyil. Çünki sədd yalnız qatar gəlib, dayandıqdan sonra açılır və sərnişinlər qatarlara daxil olurlar. Daha sonra isə yenidən platforma ilə relslər arasında ara qapanır.

Yaponiyanın paytaxtı Tokio şəhərində isə bəzi metro stansiyalarında artan intihar hadisələri üçün maraqlı bir həll yolu düşünülüb. Belə ki, intiharların qarşısını almaq üçün bəzi metro stansiyalarında mavi işıqlar quraşdırılıb. Bu üsulla, intihar psixologiyasında olan sərnişinlər mavi işıq ilə rahatlaşırlar və intihardan imtina edirlər.

Bir məlumatı da qeyd edək ki, dünyada intiharlar daha çox ABŞ-da baş verir. Belə ki, statistikalara görə hər il təxminən 40 min ABŞ vətəndaşı intiharla həyatına son qoyur. İntihar edənlərin əksəriyyəti kişilər olur və onlar metro stansiyalarına deyil, intihar etmək üçün silahdan istifadə etməyə üstünlük verirlər.

Ümumiyyətlə, rəqəmlərə görə intihara cəhd edənlərin 90 faizi ölür. ABŞ mütəxəssisləri bildirirlər ki, intihar etmək istəyən şəxslər bunu daha öncədən düşünsə də yekun qərara 10 dəqiqə ərzində gəlir və onu saxlamaq asan deyil.

**"Bakı metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev** "Yeni Müsavat"a bildirib ki, Azərbaycanda yuxarıda qeyd etdiyimiz mexanizmləri qurmaq çətindir:

"Bu, çox mürəkkəb mexanizmdir və stansiya layihələrində nəzərdə tutulmalıdır. Yəni belə bir qurğunun dərhal yaradılması asan məsələ kimi gəlməsin. Bizim stansiyalar 60-70-ci illərdə tikilib, o vaxt belə bir texnologiya olmayıb. Sizin dediyiniz qurğulardan xaricdə stansiyalarda olduğunu deyirlər. Ancaq qeyd edim ki, xarici ölkələrin əksəriyyətində də bu cür qurğular mövcud deyil. Çünki mexanizm sadə deyil. Xaricdə müqayisə edəndə onu da qeyd edim ki, orada heç kimsə gedib özünü dəmiryoluna ataraq intihar etmək istəmir. İntihar üçün başqa vasitələr seçirlər. Metroda intihar hadisələri ilə mübarizə üçün hər hansı işlərin görülməsi nəzərdə tutulmur. Gün ərzində metrodan 700 min insan istifadə edir, hər adama bir nəfər ayırmaq və ya bir polis ayırmaq kimi imkanımız yoxdur. Metroda yeni stansiyalarda platforma ilə relslərin arasında çəkilən təhlükəsizlik xəttinə işıqlar da quraşdırılıb. Yəni bu, insanların diqqətli olması, xətti keçməməsi üçün nəzərdə tutulub. İnsanın intihar üçün seçdiyi yeri öncədən müəyyənləşdirmək çox çətindir. O, metroda buna nail olmasa, gedib özünü körpüdən atar, tövlədən asar. İnsanları maarifləndirib intihardan vaz keçirmək lazımdır. İnsanları da intihardan çəkindirmək əslində Metropolitenin işi deyil. Biz sərnişindaşıma ilə məşğuluq. Doğrudur, sərnişinlərin rahat və təhlükəsiz daşınmasını təmin edirik. Yəni bizdə təhlükəsizlik məsələsi 24 saat aktivdir və hər zaman bunu düşünürük. Lakin qeyd etdiyim kimi, sırf olaraq yuxarıda bəhs etdiyimiz mexanizmin tətbiqini fikirləşmirik. Vətəndaşların təhlükəsizliyi üçün stansiyada polis də var, bizim əməkdaşlar da fəaliyyətdədirlər. Əməkdaşlarımız tez-tez anons da edirlər. Orada təhlükəsizlik xəttinin keçməməsi üçün xəbərdarlıq olunur. Sərnişin sıx olan zaman xoşagəlməz hal yaşanmasın deyə, stansiyada işləyən müfəttişlərimiz də köməyə gəlirlər.Yəni biz, bacardığımız qədər çalışırıq ki, kömək edək. Bundan əlavə sərnişinlərin təhlükəsizlik qaydalarına əməl etmələri üçün video roliklər də çəkilib, stansiyalarda sosial reklamlar, afişalar da vurulub. Əlimizdən gələni edirik. Ümumilikdə insanları intihardan vaz keçirmək lazımdır".

❑ **Əli RAİS**
**"Yeni Müsavat"**

**Yanvarın əvvəlindən başlayaraq Ukraynanın paytaxtı Kiyevdə uşaqlar arasında kəskin qızılca xəstəliyi yayılıb. 61 nəfərin qızılcaya tutulduğu aşkarlanıb. Onlardan 49-u uşaqdır. Hətta artıq 5 yaşlı bir uşaq bu xəstəlikdən dünyasını dəyişib. Kiyevdə qızılca xəstəliyinin yayılması ilə bağlı şəhərdə kütləvi tədbirlərin keçirilməsi bir ay müddətində məhdudlaşdırılıb.**

# Ukraynadakı qızılcadan Azərbaycanda da var

## Günay Rəsulova: "İnfeksiya zamanı uşağı xəstəxanaya aparmaq yox, həkimi evə çağırmaq lazımdır, çünki..."

Azərbaycancanda da bu xəstəliyə yoluxma halları müşahidə edilir. Ölkəmizdə uşaqlar vaxtında qızılcaya qarşı peyvənd olunur və valideynlərin əksəriyyəti bu mövzuda olduqca məsuliyyətlidir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) qızılcadan ildə ortalama 150 min insanın vəfat etdiyini bildirib. Bunların əksəriyyəti 5 yaşınadək olan uşaqlardır.

Qızılca epidemik, yoluxucu bir xəstəlikdir. Xəstəlik ən irəli gedən hallarında sətəlcəm və beyin iltihabı kimi vəziyyətlərə yol aça bilir. 6 aydan əvvəlki körpələrdə nadir rast gəlinir. Çünki anadan alınan anticisimlər körpəni bu xəstəlikdən qarşı qoruyur. Xəstəlik uşağa yaxın təmas və hava-damcı yolu ilə keçir. Xəstəlik virusu bədənə girdikdən təqribən 10 gün sonra əlamətlərini göstərməyə başlayır.

Bəs bu xəstəlikdən körpələri necə qoruya bilərik və yoluxma zamanı nə etmək lazımdır? **Pediatr Günay Rəsulova** qızılca xəstəliyinin spesifik xüsusi bir müalicəsinin olmadığını bildirdi: "Qızılca uşaq infeksion xəstəlikləri sırasında gedir. Azərbaycanda uğurla tətbiq edilən peyvəndlər, vaksinlər sayəsində bunun qarşısı xeyli alınmaqdadır. Hazırda Azərbaycanda qızılcanın yayılması ilə bağlı hər hansı qorxu yoxdur. Mən bunu şəxsi praktikama əsasən deyirəm. Qızılca peyvəndi elə bir peyvənddir ki, onun heç bir yan təsiri olmur. Ona görə də valideynlər qorxmadan uşaqlarına qızılca peyvəndini etdirirlər. Bu xəstəliyin əsas simptomları qızdırmanın yüksəlməsi, qızdırma ilə yanaşı, gözdə qızarma və üç gün ərzində mərhələli şəkildə iltihablı səpgilərlə müşahidə olunur. Bu uşaqlarda səpgilər adətən üzdən başlayır, xəstəliyin ikinci günündə gövdənin ön hissəsinə, qarına, üçüncü gün isə ayaqlara və qollara yayılır. Başladığı yerdən də solmağa başlayır. Yəni öncə üzdən, sonra da bədəndən solur. Qızılca xəstəliyinin spesifik xüsusi bir müalicəsi yoxdur. Sadəcə olaraq simptomatik müalicə ilə xəstəliyin öz müddətini başa vurmasını gözləyirik. Qızılca zamanı uşaqda qızdırma varsa, qızdırma salıcı dərman, həmçinin çoxlu maye verilir, uşaqlar karantinə alınır. Uşaq 15-20 günlük karantin müddətini başa vurduqdan sonra sağlam hesab edilərək normal həyatına davam edir. Qızılca xəstəliyindən sonra yaranmış immunitet çox vaxt ömürlük olur. Çox nadir halda ola bilər ki, bir dəfə qızılca tutmuş uşaq təkrar tutsun. Xəstəliyin kataral dövrü 3-5 gün çəkir, ondan sonra 5-8 günlük səpgi dövrü başlayır, daha sonra tədricən sağalma dövrü başlayır. Amma 15-20 gün ərzində bu xəstələr yoluxucu hesab oluna bilər. Çünki hələ səpgidən öncəki dövrdə, səpgi dövründə və sağalma dövründə də hətta viruslar yoluxdurucu hesab edilə bilərlər".



**G.Rəsulova insanlar arasında qızılca, su çiçəyi kimi infeksion xəstəliklərə mütləq yoluxulur düşüncəsinə gəlincə isə bunun tamamilə yanlış bir fikri olduğunu dedi:** "Heç bir infeksion xəstəliyə mütləq yoluxmaq lazımdır deyə bir şey yoxdur. Təbii ki, bu bir deyimdir. Bu bir növ xəstəlik keçirən uşağın valideynlərinin psixologiyasına müsbət təsir göstərir. Hətta bəzi valideynlər buna sevinir ki, nə yaxşı keçirtdi, bir də keçirməyəcək və s. kimi. Kontakt olmadan heç bir infeksion xəstəlik keçirməyən uşaqlar da var. Peyvənd vaksinasiya da ona görə aparılır ki, uşaq heç bir infeksion xəstəlik keçirməsin. Ancaq onu da qeyd edim ki, peyvənddən sonra da uşaq da infeksion xəstəliklər müşahidə edilə bilər. Çünki peyvəndin qoruyuculuğu 100 faiz deyil. Peyvənddən sonra uşaq xəstəlik keçirərsə, peyvənd olunmamış uşağa nisbətə daha yüngül keçirir və heç bir ağırlaşma halı müşahidə edilmir. Qızılca əsas uşaq infeksion xəstəlikləri sırasında getsə də çox nadir hallarda böyüklərdə də müşahidə edilə bilər. Təbii ki, bu böyüyün immun sistemindən asılıdır".

**Pediatr valideynlərə tövsiyələrini də verdi:** "Valideynlərə ilk növbədə tövsiyəm odur ki, uşaqlarına qızılca peyvəndini mütləq etdirsinlər. Biz buna qızılca, səpgi deyirik, amma bu infeksion xəstəliklərin çox pis, xoşagəlməz ağırlaşmalar ola bilər. Misal üçün, pnevmoniya, ən uzaq fəsad kimi 12 il sonra baş verəcək ağır nevroloji xəstəlik və s. Su çiçəyinin də çox pis ağırlaşmaları olur. Bu ağırlaşmaların baş verməməsi, uşaqların bu infeksion xəstəliklərə tutulmaması üçün mümkün qədər profilaktik peyvəndləri etməlidirlər. İnfeksion xəstəlik baş verdikdə uşağı xəstəxanaya aparmaq yox, həkimi evə çağırmaq lazımdır. Çünki uşağı xəstəxanaya apardıqda sağlam uşaqları da bu xəstəliyə yoluxdura bilərlər".

❑ **Günel MANAFLI**

# Əsl şokoladı saxtasından necə ayırd edək?

## Eyyub Hüseynov: "Şokoladın kağızı açılanda o, taxta kimi bərk, üzü hamar və parıldayan olmalıdır"

**Şokolad elə bir qida növüdür ki, hər kəsin istehlak səbətində mütləq öz yerini alır. Ümumiyyətlə elə bir insan olmaz ki, o, şokoladı sevməsin. Artıq təsdiqlənib ki, şokolad insanın əhval-ruhiyyəsini yaxşılaşdırır, onun əmək qabiliyyətini yüksəldir. Şokoladın faydaları sadalamaqla bitmir. Ancaq bu şokoladın faydaları orqanizmimizə yalnız o zaman faydalı ola bilər ki, saxta olmasın.**




Bu gün ölkəmizdə yerli istehsalla yanaşı Türkiyə və Rusiyada istehsal edilən şokoladlar da satılır. Müxtəlif qiymətə olan bu şokoladların alıcıları da kifayət qədərdir. Danılmaz faktdır ki, bu gün satışda məşhur qida brendlərinin saxtalarına da rast gəlmək mümkündür. Bu cür saxta şokoladların tərkibinə insan səhhətinə zərərli olacaq müxtəlif qatqılar, yağlar vurulur. Bu cür şokoladlar kanserogen maddələrdən ibarət olur və sağlamlığa zərər verir. Buna görə də mütəxəssislər şokolad alarkən onun üzərinin kağızına, tərkibinə diqqət etməyi tövsiyə edir. Keyfiyyətli şokoladın tərkibində yalnız təbii kakao və kakao yağı olur, hər hansı bitki və ya palma yağı deyil. Baş çəkdiyimiz marketlərdə satıcılar daha çox Rusiya və Türkiyə istehsalı olan şokoladların alındığını deyir.

**"Rahat" market satıcısı Rüfət Əliyev** deyir ki, daha çox Türkiyə istehsalı olan şokoladlar satılır: "Qara şokolad alanlar da var. Qara şokolad əsl şokolad hesab edilir, yəni içində süd fındıq, meyvə və digər qarışıqlar olmur. Hətta çox vaxt həkimlər də xəstələrə qara şokolad yeməyi tövsiyə edir. Satılan şokoladlar sırasında "Alpen gold", "Nuts", "Mars" və "Snickers" daha çox üstünlük təşkil edir. Azərbaycan istehsal edən şokoladlar da var. Onlar daha çox çəki ilə olan şokoladlardır, alıcıları da var. Ümumiyyətlə, mağazamızda meyvəli, fındıqlı, püstəli, qozlu, kremli, qəhvəli, spirtli və digər növ şokoladlar var. Ən çox satılan çeşid isə südlü və fındıqlı şokoladlardır".

Çəki ilə satılan şokoladların qiyməti isə 6 manatdan başlanır və 50 manatadək yüksəlir. Qeyd edək ki, Azərbaycanda bəzi şokolad mağazalarında Avropa istehsalı olan şokoladlar da satılır. Onların qiyməti isə təbii ki, hər kəsin cibinə uyğun olmur. Saxta şokoladları necə ayırd etməyə gəlincə isə mütəxəssislər bunun bir neçə yolu olduğunu deyirlər. Əslində şokoladın bütün sirri onun tərkibindəki kakao yağındadır. Əsl kakao çəyirdəklərindən hazırlanan şokolad faydalı vitaminlər, alkaloidlər, antioksidantlar, antidepressant maddələr olan poligenol olur. Buna görə də şokoladın içərisində kakao nə qədər çox olarsa, bir o qədər faydalı olar. Saxta şokoladların tərkibində kakao dəyəri olmur və ya kakao yerinə bitki yağlarından istifadə edilir. Saxta şokoladı dadından da bilmək mümkündür. Belə ki, saxta şokoladı yedikdə ağzımızda sanki yağ tamı olduğu halda, əsl şokolad sırf kakao qoxusu və tamını verir. Düzdür, bəzi ölkələrdə şokolad istehsalı üçün qanuni olaraq 5 faizə yaxın bitki yağından istifadə olunur. Ancaq şokolad istehsalında ənənəsinə sadiq qalan Belçika və İsveçrə yalnız kakao yağı istifadə edir. Buna görə də bu ölkələrə məxsus şokoladları dadsanız dərhal fərqliliyi hiss edə bilərsiniz. Əsl şokolad 31 dərəcə istidə əriməyə başladığı halda saxta şokolad əriməz. Əsl şokolad qırıldığında, özünə xas bir səs çıxarır, saxta şokolad isə tərkibində olan bitki yağlarına görə səssizcə qırılır. Əsl şokoladın səthi hamar və parlaq olur. Vaxtı keçmiş əsl şokoladın üzərində ağ səth yaranır. Sata şokoladların isə vaxtı bitsə belə, görünüşünü dəyişməz. Şokolad özünə xas kakao qoxusuna sahib olmalıdır. Əgər şokolad alıb qoxladığınız zaman burnunuza kakao yerinə başqa qoxular gəlirsə, o zaman aldığınız şokolad saxta ola bilər. Şokolad alarkən onun tərkibində neçə faiz kakao olduğuna diqqət edin: ağ şokoladda 20 faiz, südlü şokoladda 25 faiz, qara şokoladda isə 40-55 faiz arası kakao yağı olur.




**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** bildirdi ki, şokoladın etiketində mütləq onun mənşəyi və tərkibi yazılmalıdır: "Şokolad müəyyən standartlara uyğun hazırlanır. Əksər hallarda bazarı qorunmayan ölkələrə əlbəttə ki, standartlara uyğun olmayan mallar göndərilir. Azərbaycan da belə ölkələrdəndir. Təsadüfi deyil ki, keçən ilin 17 fevralında ölkə prezidentinin sərəncamı ilə Qida Təhlükəsizliyi Agentliyi yaradıldı. Həmin agentliyin əsasnaməsi artıq təsdiq olunub. Düşünürəm ki, Qida Təhlükəsizliyi Agentliyi bu məsələləri həll edəcək. Şokoladın kağızı açılanda o, taxta kimi bərk, üzü hamar və parıldayan olmalıdır. Əslində şokolad kakos və digər yağların qarışığından əmələ gəlir. İstisna olunmur ki, arzuolunmaz yağlar da qarışdırılsın. Ümumiyyətlə, şokoladlara vurulduğu iddia edilən palma yağının iki növü var. Palmanın tumundan, toxumundan alınmış yağ və gövdəsindən alınmış yağ. Onun tumundan alınmış yağ kifayət qədər yaxşı bitki yağı hesab olunur və bu, Azərbaycana da gətirilir. Lakin gövdəsindən alınmış yağ yaxşı yağ hesab edilmir və istisna olunmur ki, o, şokolad istehsalında da istifadə olunsun. Şokoladın etiketində onun tərkibinə vurulan yağın mənşəyi yazılmalıdır. Lakin qeyd etdiyim kimi, Azərbaycanın əmtəə bazarı kifayət qədər qorunmur və arzuolunmaz qarışıqlardan əmələ gələn şokoladların ölkəmizdə satılması istisna olunmur".

❑ **Günel MANAFLI**

**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

*N 8 (6897) 13 yanvar 2018*



## İtini ilanın əlindən almaq istədi, öldü

**Avstraliya sakini itinin tutub gətirdiyi zəhərli ilanın sancması nəticəsində dünyasını dəyişib. Bu haqda "Daily Telegraph" xəbər verib. İnsident Avstraliyanın Tamvort şəhərində baş verib. 24 yaşlı kişi itini sancmaq istəyən ilanı ondan uzaqlaşdırmaq istəyəndə sonuncu onun barmağından sancıb. Kişi ilanın diş yerini daha sonra anasına göstərib, anası da onu həkimə aparıb. Buna baxmayaraq, həkimlər onu xilas edə bilməyiblər və o, həyatını itirib. Baxmayaraq ki, həkimlər ona zəhərə qarşı güclü iynələr vurmuşdular.**

Polislər mərhumun anasından ilanı götürərək, veterinara veriblər. Peşəkar ilan ovzusu Harli Cons deyib ki, əslində kişi zəhərli ilana toxunmağa cəhd göstərməməli idi. "Onlar insanlara hücum etmək istəmirlər və ancaq onlara toxunulduğuna təhlükə mənbəyinə zevrilə bilirlər. Bu ilana toxunmaq, onu uzaqlaşdırmağa cəhd etmək isə intiharın bir formasıdır".

**Cons eyni zamanda vurğuladı ki, öz karyerası boyunca minlərlə belə ilan tutub və bir dəfə də olsun, ilan tərəfindən sancılmayıb.**

# Qara qar yağdı

**Qazaxıstanda qara rəngli qar yağıb. Ölkənin orta kəsimində yer alan Temirtauda uşaqlar kömürə bənzəyən qarla oynayırlar. Instaqramda yer alan videolarda Temirtau sakinləri hökumətdən hadisəni araşdırmasını istəyən paylaşımlar edir. Bir istifadəçi "Bununla yaşaya bilmərik, burada boğuluruq" yazıb.**

Aralarında rəsmi və müstəqim adamların yer aldığı bir qrup özəl araşdırmaçı qara qarın necə yarandığını çözməyə çalışır. BBC Temirtaunun ölkənin ən böyük dəmir və alüminium industriyasının məskəni olduğunu bildirir. Bir çox şəhər sakini isə sözügedən təsisatların yol açdığı hava kirliliyinin qara qar yağmasına səbəb olduğunu deyir.



Bəzi əsəbi Temirtau sakinləri isə bu ekoloji pozuntuya səbəb olan zavodlara qarşı imza kampaniyasına başlayıb və topladıqları imzaları Qazaxıstan prezidenti Nursultan Nazarbayevin ən gənc qızı Aliya Nazarbayevaya göndərib. Aliya Nazarbayeva Qazaxıstan Təbiəti Qoruma Təşkilatının rəhbəridir.

# Dünyanın dağılmasına 200 il qalıb?

**Məşhur fizik Stefan Havkinqdən insanlığın gələcəyi ilə bağlı qorxunc bir təxmin gəlib. "Stefan Havkinqin Favorit yerləri" adlı sənədli filmin 2-ci bölümündə məşhur fizik Havkinq deyib ki, qlobal istiliyin davam etməsi dünyada yaşamağı dayanılmaz hala gətirəcək. "200-500 il sonra insanlığın özünə yeni bir yuva axtarması lazım gələcək" deyən fizikin sözlərinə görə, parniklərin təsiri probleminin həll olunmasa, dünya Veneranın taleyini yaşaya bilər.**

Havkinq eyni zamanda deyib ki, "iqlim dəyişikliyinin olmadığını müdafiə edən biri ilə qarşılaşdığınız zaman onlara Veneraya getmələrini deyin. Səfər xərclərini mən ödəyəcəm".

Bununla paralel, NASA-nın 2002-ci il tarixli araşdırmasına görə, Venera planeti 4.5 milyard il öncə dünya kimi üzərində su və bitkilərin olduğu bir planet idi, amma qlobal istiləşmənin təsiri ilə okeanlar buxarlandı və günümüzdəki halını alıb.

Parnik qazının təsiri planetin üzərindəki temperaturu 462 santiqrat dərəcəyə qədər yüksəldib. Havkinq deyib ki, dünyanın yaşının 4.5 milyard il olduğunu nəzərə alaraq, insanlığın 200-500 il sonra özünə bir yuva axtarması lazım gələcək.



## Çinin ən ağır donuzu

**Çinin Xenan əyalətində zəkisi 750 kilo olan donuz aşkarlanıb. Ona "ölkənin ən iri canlısı" titulu verilib. Bu barədə "People's Daily Online" yazıb. Heyvanın uzunluğu 2,1 metr, hündürlüyü isə 1.5 metrdir. "Daily Mail"in yazdığına görə, ən böyük heyvan müsabiqəsini yerli fermer assosiasiyası təşkil edib. Donuzun Çjan adlı sahibi isə 3 ildir ki, onun qayğısına qalır. Sahibinin dediyinə görə, donuz çox yeyir və buna görə də ölçüləri inəyin ölçülərinə yaxınlaşıb. Xəbərdə qeyd olunur ki, ölkənin tarixindəki ən böyük donuz Ton Piq ləqəbli heyvan olub. Onun çəkisi 900 kilo olub. 4 yaşlı heyvan 2004-cü ildə ölüb. Bu ilin avqustunda isə məlum olmuşdu ki, Çinin Futsyan əyalətində ölkənin ən iri timsaha evlənməsi üçün 16 namizəd təyin olunub. 46 yaşlı siam timsahının uzunluğu 6.5 metr olub. Timsah parkında saxlanan timsahın çəkisi isə 1.5 ton olub.**






**QOÇ - Çoxdan görüşmədiyiniz adamlarla rastlaşa bilərsiniz. Amma çalışın ki, onlara giley-güzardan yox, sevindirici məqamlardan danışasınız. İndi problemi danışmaqla həll etmirlər. Ümumiyyətlə, bu gün müdrik olun.**



**BUĞA - Qarşınızda ayın ən uğurlu günlərindən biri durur. Bu səbəbdən də verilmiş imkanlardan istifadə edin. Günün ilk yarısında qazanmaq ehtimalınız da var. Hər hansı düşmənçilikdən çəkinin.**



**ƏKİZLƏR - Təxminən saat 15-ə qədər ümumi ovqatınızda gərginlik müşahidə oluna bilər. Bu səbəbdən də həmin ərəfədə riskli işlərin həllini təxirə salın. Sonrakı müddət qismən sakit keçəcək. Güzəştə getməyi bacarın.**



**XƏRÇƏNG - Əgər fəaliyyətlə bağlı ciddi bir işiniz yoxdursa, günün əsas hissəsini gəzinti və qonaqlıqlarda keçirin. Sevən aşiqlərsə mütləq görüşə çıxmağa çalışmalıdır. Daxili gücünüzə inamınızı azaltmayın.**



**ŞİR - Ulduzların düzümü şəxsi büdcənizi artırmaq üçün geniş imkanlarınızın olduğunu bəyan edir. Əlelxüsus da çoxdan bəri ala bilmədiyiniz məbləği əldə etmək üçün fəallaşmalısınız. Axşama maraqlı görüşləriniz mümkündür.**



**QIZ - Axşam saatlarına qədər mənfi enerjili Ay bürcünüzdə qərar tutsa da, rastlaşdığınız hadisələr ovqatınızın mənfi müstəviyə yönəlməsinə imkan verməyəcək. Yanvarın bütün planlarını məhz bu gün tutmalısınız.**



**TƏRƏZİ - Qarşınızda duran bu təqvim sizin üçün çox uğurlu keçməlidir. İstər əməkdaşlıq zəminində və işgüzar sövdələşmələrdə, istərsə də qarşılıqlı münasibətlərdə hər şey ürəyinizcə olacaq.**



**ƏQRƏB - Son zamanlar az qala hamı fikirlərinizə qarşı çıxır. Lakin narahatçılığa heç bir əsas yoxdur. Çünki nahardan sonra hərəkətlərinizdə əsasən haqlı olduğunuzu çoxları hiss edəcək. Yeni ilə yeni güclə başlayın.**



**OXATAN- Əsas gücünüzü sevgi amilinə yönəldin. Çünki bu gün yeganə rahatlığı məhəbbətdə tapacaqsınız. Ünsiyyətdə olduğunuz digər insanlarla isə ciddi mübahisələriniz gözlənilir, xüsusən də həmkarlarınızla.**



**OĞLAQ - Səhhətinizi kontrolda saxlasanız, ixtiyarınızda olan bu təqvimdən razı qalacaqsınız. Fəaliyyət zəminində isə bir neçə yeniliyin şahidi olacaqsınız. Yeni təkliflərlə razılaşın, təşəbbüskar olun.**



**SUTÖKƏN - Bəri başdan yeni və sevindirici xəbərlərə hazır olun. Yaxın ünsiyyətdə olduğunuz şəxslərlə münasibətləri mülayimləşdirin. Dara düşən simsarlarınıza, dostlarınıza yardım əlinizi uzadın.**



**BALIQLAR - Tanrının qüdrətini duymaq üçün gözəl vaxtdır. Tövbə etmək, nəzir vermək, xeyirxahlıq etmək, yaxud da sadəcə, ziyarətə getmək əsəblərinizi xeyli sakitləşdirə bilər. Bundan maksimum yararlanın.**

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Keşiş insanları hər gün döyürmüş



**Nyu-Cersidəki Baptist kilsəsinin keşişi Erik Demenn danışıb ki, insanları dini inanca gətirmək üçün fiziki gücdən istifadə edib. Hətta çıxışlarından birində deyib ki, "bir dəfə balaca bir uşağı sinəsindən vurandan sonra o, Allaha inanmağa başlayıb". Demennin sözlərinə görə, bu, bir neçə il əvvəl Kanadada yaşadığı vaxt baş verib. O vaxt keşiş gənclərlə çalışırmış. Ben adlı yeniyetmə isə həmin vaxt Allahı ciddi qəbul etmirmiş: "Mən ona yaxınlaşdım və sinəsinə zərblə bir neçə dəfə vurdum. Bundan sonra ona yenidən "Allaha inanırsanmı" sualını verdim və o, bu dəfə inandığını dedi.**

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100